Günəş Şərqdən doğur!

❒ № 156 (5437), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 1 sentyabr 2021-ci il (çərşənbə)



## Karantin cərimələri ləğv olunmalıdır

Azərbaycan Gürcüstan nümunəsindən istifadə edə bilər

(səh.9)

# Bütün qonaqların COVID-19 pasportu olmalıdır

### DİN bu gündən etibarən keçiriləcək toylarla bağlı qaydaları açıqlayıb




(səh.8)




## Nazirlər arasında telefon danışığı olub

Ceyhun Bayramov, iranlı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib

31 avqust 2021-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan arasında telefon danışığı baş tutub.

(səh.2)

## Yekun qərar bizdən asılı deyil



Rusiya XİN başçısı: “Azərbaycandakı erməni hərbçilər 9 noyabr bəyanatından sonra saxlanılıb”

(səh.4)

# Biz regionun siyasi və iqtisadi lideriyik

Paşinyan bunların fərqindədir və yürütdüyü siyasət sadalanan reallıqlardan irəli gəlir



(səh.5)

### ✓ ATƏT sülhə çağırır

Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlıq Cənubi Qafqazda dayanıqlı inkişaf üçün vacibdir (səh.2)

### ✓ Gorus-Qafan avtomobil yolu bağlananda baş nazir əndişə keçirib

Rusiya prezidenti iki gün Paşinyanın zənglərinə cavab verməyib (səh.3)

### ✓ Şuşanın bərpasında bəzi məqamlar nəzərə alınmalıdır

Nəsiman Yaqublu: “Təkliflərimi bərpa işləri ilə məşğul olan şirkətlərə bildirəcəm” (səh.8)

### ✓ Alim Qasımovun kürəkəninin məhkəməsi keçirilib

Basqalda axtarış zamanı evdən 2 min 600 dollar və 5 min manat pul aşkar edilib (səh.9)

# Nazirlər arasında telefon danışığı olub

## Ceyhun Bayramov, iranlı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib

**31 avqust 2021-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan arasında telefon danışığı baş tutub.**




Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Nazir Ceyhun Bayramov, İran İslam Respublikasının xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə həmkarını təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Nazir Ceyhun Bayramov, Azərbaycan və İran arasında dərin tarixi köklərə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərinin, geniş spektrli ikitərəfli əməkdaşlıq gündəliyinin mövcudluğunu vurğulayıb və iki ölkə tərəfindən bir sıra layihələrin uğurla icra olunduğunu qeyd edib.

Tərəflər, həmçinin regionda mövcud olan cari vəziyyət və ikitərəfli əməkdaşlığın bəzi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

*Nazir Ceyhun Bayramov, iranlı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib.*



## Prezident Paralimpiya oyunlarında medal qazanan idmançıları təbrik edib

**Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya oyunlarında medal qazanan Azərbaycan idmançılarını təbrik edib.**

Prezident İlham Əliyev bu barədə "Twitter" hesabında paylaşım edib.

**Paylaşımda deyilir:**

"İkinci dəfə qızıl medalı ilə bizi sevindirən Raman Salehi, gümüş medal qazanmış Lamiyə Vəliyevanı və bürünc medal mükafatçısı Səid Nəcəfzadəni ürəkdən təbrik edirəm".

## ATƏT sülhə çağırır

### Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlıq Cənubi Qafqazda dayanıqlı inkişaf üçün vacibdir



**Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlıq Cənubi Qafqazda dayanıqlı sülh və inkişaf üçün vacibdir.**

Trend-in məlumatına görə, bunu ATƏT-in hazırkı sədri Ann Linde təhlükəsizlik məsələləri üzrə illik konfransda deyib.

O qeyd edib ki, 2020-ci ildə əldə olunmuş atəşkəs ikinci Ermənistan-Azərbaycan Qarabağ müharibəsinə son qoyub və ATƏT regionda öz səylərini bərpa etmək üçün məqamdan istifadə etməlidir.

A.Linde qeyd edib ki, qalan problemlərin uzunmüddətli həllini tapmaq çox vacibdir.

Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlığın vacibliyini vurğulayan sədr bildirib ki, əməkdaşlıq məsələləri infrastruktur, rabitə və ətraf mühit kimi sahələri əhatə edə bilər: "Mənim Xüsusi nümayəndəm hər üç ölkə ilə əməkdaşlıq edir və biz tərəflərin konstruktiv yanaşmasını qiymətləndiririk".

## Britaniya səfiri Azərbaycan sülhməramlılarına təşəkkür edib



**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Ceyms Şarp Əfqanıstanda xidmət etmiş Azərbaycan sülhməramlı qüvvələrinə təşəkkür edib.**

APA-nın xəbərinə görə, səfir bununla bağlı "Twitter"də paylaşım edib.

"Əfqanıstanda xidmət etmiş 120 Azərbaycan sülhməramlısına, Böyük Britaniya və NATO tərəfdaşlarının Kabil Hava Limanını təxliyələr zamanı təhlükəsiz saxlamağa kömək etdikləri üçün minnətdarıq. Onların sağ-salamat Azərbaycana qayıtdıqlarını eşitməkdən məmnunluq duyuruq", - deyə səfir bildirib.

# Sərhədlərin delimitasiyası və demarkasiyası şərtdir

### Lavrov Ermənistan-Azərbaycan sərhədində vəziyyətin uzunmüddətli nizamlanmasının şərtlərini açıqlayıb

**"Ermənistan - Azərbaycan sərhədində vəziyyət ətrafında fikir mübadiləsi apardıq. Hesab edirik ki, bütün məsələləri istisnasız olaraq siyasi-diplomatik metodlarla nizamlamaq lazımdır".**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov erməni həmkarı Ararat Mirzoyanla danışıqlarının yekunlarına dair birgə mətbuat konfransında bildirib.



"Uzunmüddətli nizamlama isə ancaq sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin aparılması ilə mümkündür. Rusiya Prezidentinin bununla bağlı təşəbbüsü yaxşı məlumdur. Biz bu gün bu təşəbbüsün necə tez həyata keçirilməsinin mümkünlüyü barədə danışdıq. Bu prosesə hərtərəfli kömək etməyə hazır olduğumuz təsdiqlədik", deyə Rusiya XİN başçısı vurğulayıb.

**S. Lavrov Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə bağlı üçtərəfli işçi qrupun fəaliyyətindən razı olduqlarını da söyləyib:** "Ümid edirik ki, bu mexanizmin fəaliyyəti və bütün kommunikasiyaların açılması təkcə Cənubi Qafqaz regionunun iqtisadi inkişafına deyil, regionda siyasi nizamlanmanın etibarlı əsaslarla təmin olunmasına və regionun çiçəklənməsinə kömək edəcək".

# Hələki Ermənistan üçün imkanlar tükənməyib

### "Bölgənin sülh şəraitində inkişafı birgəyaşayışdan keçir"

"Ermənistan tərəfi təxribatlarını davam etdirir, atəşkəsi mütəmadi pozur və tez-tez revanşist bəyanatlar səsləndirir". Bunu "Şərq"ə açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, görünən odur ki, Ermənistan 44 günlük müharibədən yetərli dərs almayıb:

"Bu mənada Prezidentin Şuşa səfəri və orada Ermənistana ünvanladığı mesajlar xüsusi əhəmiyyətə malikdir. İrəvan hökuməti anlamalıdır ki, Azərbaycan bir də heç vaxt Ermənistanın revanşist cəhdlərinə göz yummayacaq. Bu kimi təxribatların qarşısı qətiyyətlə alınacaq. İşğal dövründə ermənilər elə görüntü yaradırdılar ki, guya, zəbt etdikləri torpaqlarımızda quruculuq və abadlıq işləri görürlər. İşğaldan sonra məlum oldu ki, ermənilər işğal etdikləri ərazilərimizdə ancaq dağıdıcılıqla məşğul olublar, mövcud tikililəri viran qoyublar. Lakin Azərbaycan tərəfi öz torpaqlarını düşməndən azad etdikdən sonra sürətlə quruculuq işlərinə başladı. Məsələn, Şuşanın işğaldan azad edilməsindən sadəcə 9 ay keçməsinə baxmayaraq, şəhərdə çoxsaylı quruculuq işləri görülüb, yeni tikililərin əməli qoyulub. Şuşada görülən işlər şəhərin kimə məxsus olduğunu bir daha ortaya qoyur".



**Parlament üzvü vurğulayıb ki, Ermənistan anlamalıdır ki, yeganə çıxış yolu Azərbaycanla normal münasibət saxlamaq və əməkdaşlıq etməkdir:** "Bölgənin sülh şəraitində inkişafı birgəyaşayışdan keçir. Hazırda Ermənistan özü də çox ağır durumdadır. İqtisadiyyatı çökmüş vəziyyətdədir. Ermənistanda çox ciddi problemlər var. Rəsmi Bakının təklif etdiyi formata, modelə, əməkdaşlığa uyğun olaraq bölgənin yenidən inkişaf etmək imkanı var. Hələki bu imkanlar Ermənistan üçün tükənməyib. İrəvan hökuməti tarixin gətirdiyi fürsətdən düzgün yararlanmalı, imkanlardan istifadə etməlidir. Əks halda daha böhranlı vəziyyətlə üz-üzə qalacaqlar".

**İsmayıl Qocayev**

# Güclülər daha da güclənir

## Kiyev Bakı ilə dost olduğunu bütün məqamlarda sübut edib



**Ukrayna bizim üçün Avropaya açılan qapıdırsa, Azərbaycan da türk dünyasına və Şərqə açılan qapıdır**

Azərbaycanla Ukrayna arasında münasibətlərin strateji olması, bu əməkdaşlığın dost, səmimiyyət üzərində qurulması rəsmi Kiyevin qəbul etdiyi daha bir sənəddə öz əksini tapıb. Ukrayna Prezidenti Zelenskinin imzası ilə avqustun 27-də qüvvəyə minən "Ukraynanın xarici siyasət strategiyası haqqında" sənəddə Azərbaycan ilə əməkdaşlığın vacibliyi qeyd olunub.

Vurğulanıb ki, Ukraynanın Azərbaycanla strateji tərəfdaşlığı regionda sülhün və sabitliyin qarantıdır. Ukrayna enerji sahəsində Azərbaycanla əlaqələrin daha da dərinləşməsində, ölkəsinin sahibkarlarının Azərbaycanda iri layihələr həyata keçirməsində maraqlıdır. Sənəddə, həmçinin qeyd olunub ki, Ukrayna Azərbaycan ərazisindəki uzunmüddətli münaqişələrin beynəlxalq hüququn prinsipləri, ilk növbədə, ərazi bütövlüyü və suverenliyə hörmət əsasında həlli üçün beynəlxalq səylərə fəal dəstək verəcək.

Məlumat üçün deyək ki, Ukraynanın xarici siyasətinin istiqamətlərini, parametrlərini və prioritetlərini ətraflı şəkildə müəyyən edən 254 bənddən ibarətdir. Sənədin ümumilikdə 8 bəndində Azərbaycan, qardaş Türkiyə və GUAM haqqında fikirlər yer alıb. Sənəddə Ermənistanla bağlı heç bir bənd yoxdur.

**Kiyev-Bakı münasibətləri haqqında "Şərq"ə danışan politoloq Tofiq Abbasov deyib ki, Ukrayna və Azərbaycan xalqı bir-birinə çox yaxın dövlətlərdir. Ekspertin sözlərinə görə, xalqlarımız arasında uzun tarixi dövrü əhatə edən bağlılıq var:** "Sovet dövründə iki ölkə arasında sıx gediş-gəliş, iqtisadi, mədəni-humanitar sahədə geniş əməkdaşlıq olub. Yazıçılarımız, mədəniyyət xadimlərimiz daim ünsiyyət saxlayıblar, xalqların yaxınlaşmasına töhfələr veriblər. Yaxın əlaqələr müstəqillik dövründə də yüksələn xətlə davam edib. Neçə illərdir, qarşılıqlı olaraq hər iki ölkədə Ukrayna və Azərbaycan mədəniyyət günləri keçirilir. Qarşılıqlı maraq və istək hər zaman iki dövlət arasındakı münasibətlərin əsasını təşkil edib. Ukrayna rəsmi Bakının dostu olduğunu daim əyani göstərib, öz dəstəyini əsirgəməyib. 44 günlük müharibədən sonra Ukrayna xalqında Azərbaycana maraq hədsiz çoxalıb. Kiyevdə Azərbaycan nümunəsi, presedenti müzakirə olunmaqdadır. Mətbuatda Azərbaycanın adı tez-tez hallandırılır. Onlar bizim gedişlərimizi, texnologiyalarımızı mənimsəmək, tətbiq etmək istəyirlər. Ümumiyyətlə, iqtisadi-sosial sahədə Ukrayna ilə əməkdaşlığımızı daha yüksək mərhələyə qaldırmaq imkanlarına sahibik. Ukrayna bizim üçün Avropaya açılan qapıdırsa, Azərbaycan da türk dünyasına və Şərqə açılan qapıdır. Bir məqamı da qeyd edim ki, GUAM-ı Avropa İttifaqı öz təşəbbüsü kimi irəli sürmüşdü. İsveç və Polşanın iştirakı ilə belə bir təşkilat yaradılmışdı. Əslində məqsəd 4 ölkəni Rusiyanın təsir dairəsindən uzaqlaşdırmaq və Qərbə yaxınlaşdırmaq idi, yəni siyasi xarakterliydi. Azərbaycan tərəfinin təşəbbüsü ilə GUAM iqtisadi əməkdaşlıq təşkilatına çevrildi və siyasi alət olmaqdan çıxdı. Hazırda da dost Ukrayna ilə ən sıx əməkdaşlığımız məhz iqtisadi sahəni əhatə etməkdədir".

**İsmayıl Qocayev**

## Gorus-Qafan avtomobil yolu bağlananda baş nazir əndişə keçirib

### Rusiya prezidenti iki gün Paşinyanın zənglərinə cavab verməyib



**Gorus-Qafan avtomobil yolunun bağlanmasından sonra Ermənistan baş naziri Nikol Paşinyan iki gün Rusiya prezidenti Vladimir Putinlə əlaqə saxlamağa çalışıb.**

Trend-in məlumatına görə, bu barədə Ermənistanın "Past" qəzeti yazıb.

Amma Rusiya prezidenti baş nazirin zənglərinə cavab verməyib.

Qeyd edək ki, 25 avqust tarixində saat 15:45 radələrində Gorus-Qafan yolunun Qubadlı rayonunun Aşağı Cibikli kəndi yaxınlığından keçən hissəsi istiqamətində yerləşən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qubadlı" əlahiddə sərhəd diviziyasının sərhəd-döyüş məntəqəsinin ərazisində xidmətdə olan əsgər Şirəliyev Ruslan Nəriman oğlu Ermənistan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusunun qəfil hücumuna məruz qalmış, əlbəyaxa döyüş zamanı sinə nahiyəsindən süngü bıçaqla xəsarət alıb.

Sərhədçiyə hücumdan sonra Azərbaycan ərazinin təmizlənməsi üçün lazımi əməliyyat tədbirləri həyata keçirib və hərəkətin tənzimlənməsi üçün lazım olan addımları atıb

## Paşinyan istirahətə gedir

### Ermənistan Suren Papikyanın ümidinə qaldı

**Nikol Paşinyan qısa müddətli məzuniyyət götürüb.** Bu barədə Ermənistanın nazirlər kabineti məlumat yayıb. Avqustun 31-dən sentyabrın 3-nə qədər məzuniyyət götürən Paşinyan Ermənistanda olacaq. Yəni, istirahətini xaricdə keçirməyəcək.

Bu müddət ərzində baş nazirin vəzifələrini Paşinyanın müavini Suren Papikyan icra edəcək. Daha əvvəl yayılan məlumatlara görə, Nikol məzuniyyətini ailəsi ilə birgə Soçidə keçirəcək.

# 7 itkinimizdən məlumat yoxdur

## Akif Nağı: "Əgər itkin şəxslərimiz bizim torpaqlarımızda olsaydı, nəşlərinin qalıqları tapılardı"

Ermənistan indiyədək ikinci Qarabağ müharibəsində itkin düşmüş 7 nəfərin taleyi barədə məlumat vermir. Bu barədə Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib. Ombudsman bildirib ki, missiyasına uyğun olaraq əsir və girov düşmüş şəxslərin müdafiəsini, onların pozulmuş hüquqlarının bərpasını daim diqqətdə saxlayır:

"Təkzibedilməz faktlar tədbirlərin görülməsini tələb edir". Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi İsmayıl Axundov da deyib ki, Birinci Qarabağ müharibəsində digər diqqətçəkən faktlardan biri də ermənilərin yeniyetmə və gəncləri ailələrindən ayıraraq naməlum yerə aparmasıdır. O bildirib ki, girov götürüldükdən sonra əvvəlcə Xankəndi şəhərinə, daha sonra naməlum istiqamətə aparılan 9 nəfərin taleyi məlum deyil: "29 il keçməsinə baxmayaraq, Ermənistan tərəfi itkin və girovlarla bağlı heç bir məlumat vermir. Sağlam yeniyetmələrdən ermənilər böyük ehtimalla donor kimi, yaxud orqanlarını çıxarıb satmaq üçün istifadə ediblər. Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən əsir və girov götürülmüş 54 nəfərə baş çəkilib. Sonradan onların 17-si saxlandığı yerdə öldürülüb, cəsədləri təhvil verilib, qalanlarının taleyi bu günə qədər də naməlumdur. Sonuncu itkinin taleyi aydınlaşana qədər bu sahədə iş davam edəcək".





**Taleyi bəlli olmayan itkinlərimizlə bağlı "Şərq"ə danışan Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bildirib ki, ermənilərin ağır cinayətləri çoxdur.** Birlik rəhbərinin sözlərinə görə, düşmənin qanunsuz və qeyri-insani əməllərindən biri də itkin şəxslərlə, hətta əsir və girov götürdükləri şəxslərlə bağlı məlumatları gizlətmək olub: "Birinci Qarabağ müharibəsində 4000-nə yaxın insanımız itkin düşüb və onların həyatından hələ də xəbər-ətər yoxdur. 30 ilə yaxın vaxt ötsə də, ermənilər itkinlərimizlə bağlı heç bir sorğuya düz-əməlli cavab verməyib. İkinci Qarabağ müharibəsindən bir ilə yaxın vaxt keçib. Hələ də 7 itkinimiz var. Hər bir Azərbaycan vətəndaşının həyatı bizim üçün önəmlidir. Nəzarətimizdə olan ərazilərdə aylardır ciddi axtarış aparılır, bölgə qarış-qarış nəzərdən keçirilir. Əgər itkin şəxslərimiz bizim torpaqlarımızda olsaydı, nəşlərinin qalıqları tapılardı. Məlumdur ki, Rusiya sülhməramlılarının məsuliyyət dairəsində olan ərazilərdə də ağır döyüşlər gedib, şəhid olanlarımız olub. Həmin bölgədə ruslar və ermənilər axtarış aparıblar. Bəlkə də cəsəd tapıblar, amma bizə bu haqda məlumat verməyiblər. Növbəti dəfə öz düşmənçiliklərini göstəriblər. Ermənilərdən hər cür alçaqlığı gözləmək olar".

### "Ermənilərlə yanaşı, ruslar da bu məsələyə görə məsuliyyət daşıyırlar"

**A.Nağı əlavə edib ki, məsələ daim diqqətimizdə olmalıdır:** "Rəsmi orqanlarımız mütəmadi, fasiləsiz beynəlxalq qurumlara, Rusiyaya müraciət etməlidir. Ermənilərlə yanaşı, ruslar da bu məsələyə görə məsuliyyət daşıyırlar. Ermənistan tərəfi öz yalanlarını yayır, iddia edir ki, guya, 200 nəfər erməni əsgəri itkindir və Azərbaycan onlar haqqında məlumat vermir. Hamısı yalandır. Əlimizdə olan bütün əsirlərlə bağlı tam dəqiq və ətraflı məlumatları vermişik. Ermənilərdən fərqli olaraq indiyədək heç bir informasiyanı gizlətməmişik və gizlətmək fikrimiz də yoxdur".

**İsmayıl Qocayev**

# Qələbə bölgədəki reallığı tam dəyişdirib



## Ermənistan rəhbərliyindən heç kim qondarma tədbirə qatılmayacaq

**Ermənistan tarixində ilk dəfə ölkə rəhbərliyindən heç kim Qarabağda sentyabrın 2-də keçirilməsi planlaşdırılan qondarma "müstəqillik günü" tədbirlərinə qatılmayacaq.**

Bu məlumatı "Joxovurd" qəzeti yayıb. Məlumata görə, sabah Xankəndidə planlaşdırılan "tədbir"lərə nə Prezident Armen Sarkisyan, nə Baş nazir Nikol Paşinyan, nə də parlament spikeri Alen Simonyan qatılacaq. Qeyd edək ki, Paşinyan avqustun 31-dən sentyabrın 3-nə kimi məzuniyyətə çıxıb. Onun Soçidə istirahət edəcəyi bildirilir. Siyasi şərhçilərin fikrincə, mövcud reallığı dərk edən erməni rəhbərliyi Qarabağa getməyə risk etmir. Görünür, separatçıların bütün hayküyünə və rus sülhməramlılarının gizli dəstəyinə rəğmən, Paşinyan hökuməti rəsmi Bakının prinsipial mövqeyi ilə barışmaq məcburiyyətində qalıb.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, 44 günlük müharibə bölgədəki reallığı tam dəyişdirib.** Analitikə görə, artıq ermənilər özləri də anlayırlar ki, 2020-ci ilin sentyabrın 27-dən əvvəlki dönəm tamamilə arxada qalıb və yeni yanaşmalar formalaşıb: "Ermənistan rəhbərliyi hazırda çox ciddi problemlərlə, çağırışlarla üz-üzə qalıb. Paşinyan hökuməti elə havada deyil ki, qondarma rejimin "bayram" havasına oynasın. Təəssüflər olsun ki, separatçı tör-töküntü hələ də Qarabağda "müstəqillik günü" keçirmək düşüncəsi ilə yaşayır. Bunun özü müəyyən suallar doğurur. Rusiya sülhməramlıları belə "tədbirlərdə" iştirak etməməli və ümumiyyətlə buna imkan verməməlidirlər. Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli komissiya fəaliyyət göstərir. Əgər İrəvan və Moskva komissiyanın məhsuldar olmasını, müzakirələrin nəticə verməyini istəyirsə, bu tipli təxribatlara qətiyyən yol verilməməlidir. Çünki regional siyasi vəziyyət kökündən dəyişib və onunla ayaqlaşmaq lazımdır".

**İsmayıl Qocayev**

## Yekun qərar bizdən asılı deyil

### Rusiya XİN başçısı: "Azərbaycandakı erməni hərbçilər 9 noyabr bəyanatından sonra saxlanılıb"



**"Əgər dəqiq olsaq, 9 noyabr bəyanatında qeyd olunan hərbi əsirlər həmin vaxta qədər əsirlikdə olanlardır".**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov erməni həmkarı Ararat Mirzoyanla danışıqlarının yekunlarına dair birgə mətbuat konfransında deyib.

O bildirib ki, Azərbaycandakı erməni hərbçilər 9 noyabr bəyanatından sonra, noyabrın sonunda saxlanılıblar.

S. Lavrovun sözlərinə görə, bütün bunlara baxmayaraq, Rusiya Prezidentinin Azərbaycan Prezidenti İlham Əliyevlə təmaslarında, eyni zamanda, digər səviyyələrdə Azərbaycan tərəfinə siqnal göndərilir, saxlanılanların şərt irəli sürmədən azad edilməsinə çağırış edilir: "Bu vacib humanitar addım olardı. Biz bu mövqedən çıxış etməyə davam edəcəyik. Əlbəttə ki, yekun qərar bizdən asılı deyil. Biz bütün qarşılıqlı inam tədbirlərini aktiv şəkildə dəstəkləyirik", - deyə Rusiya XİN başçısı vurğulayıb.

## Ermənilər Şuşanın onların olmadığını bilirdi

### Kərim Kərimli: "Özləri də ürəklərinin dərinliyində inanırdılar ki, Azərbaycan nə vaxtsa torpaqlarını geri alacaq"



**Prezident İlham Əliyev Vaqif Poeziya Günlərinin rəsmi açılışı zamanı Şuşanın tarixindən danışıb. Azərbaycan lideri bildirib ki, Şuşanın bərpası ilə bağlı ilk səfəri çərçivəsində bütün lazımi göstərişlər verilib və yanvar ayından bu günə qədər, 7 ay ərzində artıq çox böyük işlər görülüb:**

"Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görür. Bəli, şəhər hələ ki, dağılmış vəziyyətdədir. Çünki ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb və Şuşanın bərpası 14 yanvardan başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi".

**Əslən Şuşadan olan jurnalist, publisist Kərim Kərimli bu barədə "Şərq"ə bildirib ki, Şuşa uzun illər işğalda saxlanıldı:** "Təbliğat tədbirləri həyata keçirildi. Amma ermənilər özləri də ürəklərinin dərinliyində inanırdılar ki, Azərbaycan nə vaxtsa torpaqlarını geri alacaq. Ona görə orada yalnız özlərinə lazım olacaq qədər tikinti obyekti saxlayıb, qalanlarını dağıtmışdılar. Düşmən Şuşanın onun olmadığını bilirdi. Doğrudan da, Şuşa heç vaxt erməni şəhəri olmayıb və bundan sonra da olmayacaq".

**Kənan**

# Əlinə fürsət düşən kimi yenidən bombalayacaq

Ağ Evin sözçüsü Cen Psaki ABŞ Prezidenti Co Baydenin Kabildə Amerika əsgərlərinin həyatına son qoyan terrorçulardan qisas almaq üçün Əfqanıstandakı Amerika ordusuna əllərindən gələn hər şeyi etməsinə icazə verdiyini söyləyib. Psaki prezidentin komandirlərə heç bir şey qarşısında dayanmamalı olduqlarını, Amerika əsgərlərini öldürən İŞİD-in cavab verməli olduğunu söylədiyini bildirib. O qeyd edib ki, ABŞ-ın Əfqanıstanda cümə axşamı günü İŞİD yaraqlılarına hücumundan sonra etdiyi hərəkətlər özünümüdafiədir.



## Amerika Əfqanıstan siyasətində geri çəkilmir

**Amerikanın Əfqanıstan siyasətinin fiaskoya uğradığını deyən MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə vurğulayıb ki, artıq Əfqanıstanda İŞİD və "Taliban" kimi terror təşkilatları öz inkişaf mərhələsinə çatıb.** O qeyd edib ki, görünən odur ki, 20 il ərzində ABŞ orda ola-ola İŞİD bazalarının yaradılmasına və inkişafına göz yumub: "Təxliyə prosesində əgər İŞİD Əfqanıstan aeroportunda terror həyata keçirirsə, bu, əlbəttə ki, Amerikanın strateji səhvidir. Düzdür, Amerika yeni bir bəhanə əldə edərək növbəti mərhələdə Əfqanıstanı yenidən bombalayacaq. Bu onu göstərir ki, Amerika Əfqanıstan siyasətində geri çəkilmir. Ümumiyyətlə, Əfqanıstan artıq regiona təsir etmək üçün yeni plasdarmdır. Burada Rusiyanın, Çinin də öz maraqları toqquşur, həmçinin prosesdə Türkiyə də var. ABŞ istəyir ki, öz qoşunlarını Qırğızıstanda yerləşdirsin və burada İŞİD-in mövqelərinə, o cümlədən "Taliban"a da müəyyən zərbələr endirsin. Göründüyü kimi, ABŞ Əfqanıstan siyasətindən geri çəkilməyib və yalnız öz ordusunu oradan çıxarıb. ABŞ hazırda regiondadır və proseslərə nəzarət etmək iqtidarındadır. Əlbəttə ki, xüsusilə Mərkəz Asiya istiqamətində yeni böhran qapını döyür. Bu müharibənin başlamaması üçün regionda gərək Çin, Rusiya və Mərkəzi Asiya ölkələri birlik nümayiş etdirə və xaosun qarşısını alarlar. Yoxsa proses böhrana doğru gedəcək. Görünən odur ki, ABŞ regionu yeni bir bataqlığa salmağa çalışır".

**Politoloq diqqətə çatdırıb ki, ABŞ-ın Mərkəzi Asiya və Əfqanıstan siyasəti yeni toqquşmalara yol aça bilər:** "Əfqanıstandan öz ordusunu çıxaran Vaşinqton Qırğızıstanla danışıqlar apararaq öz hərbi qüvvələrini Mərkəzi Asiyada yerləşdirməyə çalışır. Bu ölkədən Əfqanıstanı nəzarətdə saxlamaq, həmçinin Mərkəzi Asiyada cihadçı qruplara dəstək verməklə, regionda Çin və Rusiyaya qarşı yeni bir strateji xətt həyata keçirməyi planlayır. Tacikistanda, Özbəkistanda və Qazaxıstanda radikal dini terrorçular var. Onları bir yerdə cəmləşdirib, Çinin Uyğur bölgəsində də yeni bir terror fəaliyyətinə stimul verməsi mümkündür. Məqsəd Mərkəzi Asiya üzərindən Rusiya və Çinin artan beynəlxalq nizamda fəaliyyətinin qarşısını almaq və daxili problemlərə çəkməkdir. Əgər Qırğızıstan və Özbəkistan ABŞ bazalarına ev sahibliyi edəcəksə, Mərkəzi Asiyada stabillik pozulacaq və dini radikallar inkişaf edib, "Taliban"la əlaqələri inkişaf etdirəcək. Nəticədə bu ölkələrin daxili siyasi vəziyyəti xaosa yuvarlana bilər. Göründüyü kimi, Orta Asiya və Orta Şərqdə geosiyasi vəziyyət böhrana yuvarlanır. Beynəlxalq güc olmaq üçün Çin, ABŞ və Rusiya üçbucağında siyasi-hərbi böhran yeni mərhələyə keçmək üzrədir".

**Aynurə Pənahqızı**

## "Bu, ciddi mesajdır"

### Elxan Şahinoğlu: "Rusların müvəqqəti yerləşdiyi ərazilərə də zərbələr endirə bilərik"



**Dünən Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.**

Müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmələrin komandirləri, o cümlədən digər məsul zabitlər də cəlb olunub.

Ermənistan-Azərbaycan dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərində vəziyyəti təhlil edən müdafiə naziri qarşı tərəfin təxribat fəaliyyətinə dərhal adekvat cavabın verilməsi, qoşunların döyüş qabiliyyətinin və şəxsi heyətin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin praktiki məşq etdirilməsi, döyüş planlarının dəqiqləşdirilməsi, həmçinin maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı tapşırıqlar verib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu nazirin sözügedən açıqlamasını "Şərq"ə qiymətləndirib:** "Zakir Həsənov bildirdi ki, rusların müvəqqəti yerləşdiyi ərazilərə də zərbələr endirə bilərik. Bu, ciddi mesajdır. Çünki ermənilər sülhməramlıların arxasında gizlənərək təxribat törədirlər. Azərbaycanın cavab verməyəcəyini və ya bu halda ruslarla üz-üzə gələcəyini fikirləşirlər. Amma bizim üçün fərqi yoxdur. Müdafiə naziri də məhz bunu demək istəyirdi".

**Kənan**

## "Azərbaycan türk dövlətləri arasında körpüdür"

### Madi Raimov: "Qazaxıstan hələ 1990-cı illərdən Azərbaycanın Qarabağ müharibəsindəki haqlı mübarizəsini dəstəkləyirdi"

İkinci Qarabağ müharibəsi türkdilli dövlətlər arasında əlaqələri sanki bir az da möhkəmləndirdi. Sözügedən ölkələr xarici qüvvələrə qarşı birgə mübarizənin əhəmiyyətini növbəti dəfə anladılar. Yəni "Güc birlikdədir" atalar misalı öz təsdiqini tapdı.

Təəssüf ki, sovet dövründə əlaqələrimizə imkan verilməmişdi. Amma indi müstəqilik, hər bir ölkə öz xarici siyasətini yeridir. Və bir-birimizlə yüksək səviyyəli təmaslar, şübhəsiz ki, xarici diplomatiyamızın əsasını təşkil edir.

*"Şərq" olaraq qazaxıstanlı tarixçi və publisist, "Türklərin son qalası", "Cənubi Qafqaz türkləri", "Gürcüstanda bir dəfə" kimi kitabların müəllifi Madi Raimovla sözügedən əlaqələrin perspektivini müzakirə etdik.*

**- Azərbaycan-Qazaxıstan münasibətlərinin hazırkı durumunu necə qiymətləndirirsiniz?**

- İdealdır! Müstəqil türk dövlətləri arasında bizim əlaqələrimiz ən yaxşılardan biridir. Qazaxıstan hələ 1990-cı illərdən Azərbaycanın Qarabağ müharibəsindəki haqlı mübarizəsini dəstəkləyirdi. Qazaxıstan bu məsələnin tənzimlənməsi üçün yaradılan beynəlxalq komissiyada iştirak edirdi. Ölkəmizdə bizimlə eyni hüquqlara malik minlərlə azərbaycanlı yaşayır. Fikrimcə, təkcə bu faktın özü münasibətlərin hansı səviyyədə olduğunu göstərir.




**- Əvvəllər türkdilli dövlətlərin inteqrasiyasında müəyyən boşluqlar, məhdudiyyətlər müşahidə olunurdu. Münasibətləri bərpa etmək naminə indi hansı addımlar atılmalıdır?**

- İlk növbədə nəyə ehtiyacımız olduğuna qərar verməliyik. Əlbəttə, işə bir neçə onilliklər ərzində kəsilən mədəni əlaqələrdən başlamalıyıq. Qarşılıqlı iqtisadi əməkdaşlığımız olmalıdır. Nəzərə almalıyıq ki, Azərbaycan Orta Asiya türkdilli ölkələrlə Türkiyə arasında körpüdür.

**- Türkdilli ölkələr gələcəkdə Avropa Birliyinə bənzər bir quruluşla birləşməsi hansı halda mümkündür?**

- Təbii ki, bu, mümkündür. Biz çətin, amma inamlı bir yola doğru gedirik.

**- Nəinki Qarabağ, Təbriz də tarixi Azərbaycan torpaqlarıdır. Siz bir tarixçi kimi bunu təsdiqləmək üçün hansı faktları sadalaya bilərsiniz?**

- Təbrizin Azərbaycana aid olduğunu Səfəvilərdən Qacarlaradək tarixə baxaraq aydın görmək olar. Oğuz türklərinin, Səlcuq türklərinin bütün tarixi Təbrizlə bağlıdır. Amma fikrimcə, indi Azərbaycan prioriteti Qarabağ olmalıdır. Yalnız bu məsələni tam həll etdikdən sonra Təbrizdən danışmaq olar.

**Kənan Novruzov**

## Biz regionun siyasi və iqtisadi lideriyik

### Paşinyan bunların fərqindədir və yürütdüyü siyasət sadalanan reallıqlardan irəli gəlir

Ermənistan parlamentinin keçmiş deputatı Arman Abovyan ölkəsində baş verən proseslərdən danışarkən Paşinyan hakimiyyətinin yürütdüyü siyasətin ermənilər üçün təhlükələrindən söz açıb. Son prosesləri şərh edən Abovyan bildirib ki, Azərbaycan artıq nümayiş etdirdi ki, Ermənistanın cənub hissəsini ölkənin digər əraziləri ilə ayırmaq imkanına malikdir.

Onun sözlərinə görə, rəsmi Bakı İran-Ermənistan logistik əlaqələrini də bağlamağa qadir olduğunu sübuta yetirdi. Abovyanın iddiasına görə, Ermənistan hakimiyyəti böyük ehtimalla Ermənistanın şimalını Gürcüstanla birləşdirən dövlətlərarası avtomobil yolunun bir hissəsini də ilin sonuna qədər Azərbaycanın nəzarətinə verəcək: "İndi təsəvvür edin ki, Türkiyə-Azərbaycan qoşunları eyni vaxtda respublikanın İrana və Gürcüstana yollarını bağlamaq qərarına gələndə nə baş verəcək. Beləliklə görünən odur ki, hazırkı hakimiyyət ölkəni parçalamağa və məhv olmağa sürükləyir. Ermənistan hakimiyyəti bizi Türkiyə ilə diplomatik əlaqələrin qurulmasına hazırlayır. Lakin Türkiyənin Ermənistanla sərhədləri açmağa hansı şərtlərlə razı olacağı haqda heç bir məlumat verilmir və bu, gizli saxlanılır". Abovyanın fikrində həqiqət odur ki, Azərbaycan güclü tərəfdir və lazım olanda öz qəti və sərt mövqeyini ortaya qoyur. Ancaq bir sıra ekspertlərə görə, məhz indiki məqamda erməni müxalifətinin və ölkədəki müəyyən qruplaşmaların Paşinyan hökumətinə qarşı bu cür ittihamlar səsləndirməsi təsadüfi deyil. Məsələ ondadır ki, Paşinyan hökuməti regional kommunikasiyaların açılmasından bəhs etdikcə, Türkiyə ilə normal münasibət qurmaqdan danışdıqca, ictimaiyyətə "xain, erməni düşməni" kimi təqdim olunur. Amma sirr deyil ki, müəyyən qruplaşmaları çıxmaqla erməni cəmiyyəti Paşinyanın sağlam və real mövqeyini, müharibəsiz inkişaf dövrünü daha çox dəstəkləyir.




### Erməni xalqı varlığını itirmək istəmirsə, Türkiyə və Azərbaycanla münasibətlərini yoluna qoymalıdır

**Vətəndaş Həmrəyliyi Partiyası sədrinin müavini Samir Əsədli "Şərq"ə açıqlamasında vurğulayıb ki, 44 günlük müharibədən və möhtəşəm Zəfərdən sonra təkcə hərbi mövqelər deyil, həm də geopolitik durum və xalqların baxış dərəcəsi dəyişib.** Partiya rəsmisinin sözlərinə görə, Azərbaycan xalqı qalib statusundadır: "Bundan sonra regionla bağlı geopolitik planlarda bu məqam əsas götürülür. Ermənistan cəmiyyətinin ağlı başında olan, mövcud situasiyanı düzgün qiymətləndirən kəsimi reallığı qəbul edir və mövqeyini buna görə müəyyənləşdirir. Hazırda Paşinyan Ermənistanda realist və praqmatik baxışın lideri sayıla bilər. Ermənilər illərlə əsirinə çevrildikləri xəstə şovinizmin uğursuzluğunu dərk etmək məcburiyyətindədir. Bu xalq varlığını itirmək istəmirsə, Türkiyə və Azərbaycanla münasibətləri yoluna qoymalıdır. Ermənistanın başqa yolu yoxdur. Azərbaycan bölgənin iqtisadi lideridir və regionun iqtisadi mənfəətləri yalnız rəsmi Bakının razılığı ilə mümkündür. Paşinyan bunların fərqindədir və yürütdüyü siyasət sadalanan reallıqdan irəli gəlir. Ölkədə səslənən digər radikal fikir və bəyanatlar isə Sarkisyan-Koçaryan xəttinin işartılarıdır. Ümumi görüntülər və analizlər onu göstərir ki, Ermənistan cəmiyyəti keçmişdən qurtulmağa qərarlıdır. Ona görə də üç-beş revanşistin çağırışlarına, əsassız ittihamlarına məhəl qoymayacaqlar".

**İsmayıl Qocayev**

# “İndi gözüm "xəstə" axtarır

## Rumiyyə Miraslan: “Kaş ki”lərlə heç nəyi, heç kimi geri qaytarmaq olmur”



Koronavirus media cameəsinin də sıralarını seyrəltdi. Həmkar itkisi ürəyimizi kədərlə doldurur, xəstəliyə qələbə çalanları görəndə isə təskinlik tapırıq. Dəyərli həmkarımız Rumiyyə Miraslan da qalib jurnalistdir. Ən böyük və mühüm döyüşdə - həyat uğrunda mücadilədə qələbə çaldı. Hazırda "Baku.TV"də redaktor vəzifəsində çalışan Rumiyyə xanım "dostlarım, iş yoldaşlarım, qayğıkeş rəhbərlik sayəsində koronavirusa qalib gəldim" - deyir.

Amma bilirik ki, insanın öz əzmi, dəyanəti də əsas şərtdir. Rumiyyə xanımı sosial şəbəkədə izləyənlər necə döyüşkən ruhlu olduğunu görür. Paylaşdığı statuslar, baş verən hadisələrə münasibəti mübarizliyindən xəbər verir. Zəhrimar virusa yoluxduğunu da sosial şəbəkədən öyrənmişdik. ”Yeni Klinika”da müalicə olunduğunu yazırdı və çoxumuzun təəccübünə rəğmən qüsursuz tibbi yardım göstərildiyini qeyd edirdi. Nəhayət, sağaldığını, xəstəxanadan çıxdığını da öyrəndik. Və həmkarımızı çox da yormamaq şərti ilə bu günlərdə başına gələnlər barədə danışmasını istədik:

- İşə çıxıram, artıq. Amma iş gününün sonunda hiss etdim ki, yorulmuşam. Sanki taqətim tükənirdi. Həkimlər hələ 14 gün işə çıxmamağı tövsiyə etmişdi. Reabilitasiya dövrünü keçməliyəm...

**- Bəs niyə işə çıxdınız? Rəhbərlik tələb etdi?**

- Xeyr, qətiyyən. Xəstəliyin ilk günlərində demişdim, indi də deyirəm, rəhbərliyin qayğısını həmişə hiss etdim. Tək mən yox. Hansı əməkdaş xəstələnibsə, hamısına qarşı eyni qayğıkeş münasibət olub. ”COVİD” analizlərinin ödənişini iş yeri üzərinə götürüb. Həm də təkidlə israr edirlər, başlanğıcda, xəstəlik müddətində lazım olan bütün analizlərin ödənişi iş yerinin hesabına olub. Başqa məsələlərdə qayğını əsirgəməyiblər. Sadəcə, hazırda əməkdaşlarımız arasında yoluxanlar çoxdur. Məzuniyyətdən qayıdanlar arasında da xəstələnənlər var. Ona görə iş axsayır. İşimizdə daha artıq axsama olmasın deyə, özüm işə çıxmaq qərarına gəldim. Kollektiv mənə dəstək olursa, mən də kollektivə dəstək olmalıyam.

**- Özünüzü indi necə hiss edirsiniz?**

- Hələ müalicə müddəti bitməyib. Tez yoruluram... 1 ay dərman qəbulu davam etməlidir. Qan durulaşdırıcı dərmanlar içməliyəm. Aspirin kardio, Kardio-maqnil... İynə yazıb həkim. 1-2 gün dərmanları içmədim, qanda tromb əmələ gəldi. Qolumda göyərmə oldu. Başa düşdüm ki, gərək o dərmandan imtina etməyim. Sizə deyim ki, koronavirusun ən təhlükəli tərəfi qanda tromblaşmanın yaranmasıdır...

**- Ordan-burdan başladıq. Deyəsən, xəstəlik hamımızı çaşdırıb... Bəlkə əvvələ qayıdaq?**

- Deyiləsi o qədər sözüm var, istəyirəm, hamıya elan edim, yalvarım ki, bu xəstəliklə zarafat etməyin! Xroniki xəstəliyi olanlar çox vaxt bu xəstəliklərlə ”COVİD”i qarışdırır. Birində xroniki bronxitdi, öskürür, elə bilir, həmişəki halıdır, əvvəlcə keçirdiyi xəstəlikdir, astma, böyrək çatışmazlığı, revmatizm... adi qrip. ”Soyuqlamışam, sətəlcəm olmuşam”, deyib üstündən keçmək istəyirlər. Sonra isə çox gec olur. Məndə sümük ağrıları olur. 9 ildir. Bu dəfə də xəstəlik sümük ağrıları ilə başladı. Qızdırma yox idi. Düşündüm ki, kondisionerin təsiridi. 3-cü gün, ”ayıldım” ki, ağrıdan ölürəm artıq. Və boğulurам. Qızdırmam da qalxdı 38-ə. 2 Parasitomol içdım. Qızdırma düşdü, qalxdı. ”103”-ə zəng etdim. ”COVİD” analizi götürmədiklərini dedilər. Poliklinikaya zəng etdim, Xətai rayonundakı 28 saylı poliklinikaya. Dedilər, ”bizə test verilməyib”. ”TƏBİB”ə zəng vurdum. Dedilər, Abşeronda modul tipli xəstəxanaya gedin. Çaşıb qalmışdım... 2 ay əvvəl rəfiqəm rəhmətə getmişdi, koronavirusdan. Təsəvvür edirsiniz, bir yerdə böyümüşük, 22 il bir həyətdə yaşamışıq, 39 yaşında gənc xanım rəhmətə getdi, uşaqları yetim qaldı. Bu mənə çox ağır təsir etmişdi, indi də xəstələnəndə rəfiqəm yadıma düşdü, psixoloji travma yaşadım. Məni bu vəziyyətdən iş yoldaşlarım çıxardı. Birincisi, gözləmədiyim halda, iş yerindən zəng etdilər ki, təcili Ailə Sağlamlıq Mərkəzinə gedim və analiz verim. Çünki işə xəstələndiyimi xəbər vermişdim. Təsəvvür etməzsiniz, mən ora ağrılar içində getdim. Ağrıdan ağlayırdım, demək olar, yeriyə bilmirdim. Həkim görən kimi, dedi, burundan yaxma götürüləcək, böyük ehtimalla ”korona”ya yoluxmusunuz. Neçə müddətdir işləyirlər, xəstələri zahiri əlamətlərdən də tanıyırlar. Bir neçə saat sonra cavab çıxdı - pozitiv! Sağ olsun, İcbari Tibbi Sığortanın mətbuat xidmətinin rəhbəri Aynurə xanım. Məni ”Yeni Klinika”ya göndərdi. Aynurə xanım olmasaydı, bilmirəm halım necə olacaqdı. Xəstəxanalara yerləşmək qeyri-mümkündür. Gərək tanışın olsun. Mən media nümayəndəsi ola-ola belə çətinliklə xəstəxanaya yerləşə bildimsə, düşünün, sıravi adamlar hansı vəziyyətdə olur. Bir çox xəstəxanalarda vəziyyət biabırçıdı. Tibb bacıları çatışmır. Xəstəxanalarda cihazların monitorları işləmir. Oksigen, kislorod balonu tapılmır. Statusda yazdığım kimi ”Yeni Klinika”da vəziyyət tamam fərqlidir. Elə bilirdim Azərbaycanda deyiləm, hansısa xarici ölkədəyəm. Qüsursuz tibbi xidmət vardı. Günün istənilən vaxtında nə istəyirsən, dərhal gətirirdilər. Tez-tez təzyiqi, ürək döyüntüsünü ölçürdülər. Xəstəliyin gedişatına uyğun müalicə də dəyişirdi. Müalicə həkimi daim maraqlanırdı. Analizlərin nəticələrinə baxırdı. Hər bir şərait vardı. Kənardan nəsə istəyirsənsə, yaxınlara çatdırırdılar, gətirirdilər. Amma ümumiyyətlə, heç nəyə ehtiyacım qalmırdı. Nahar da vaxtlı vaxtında, çay, şirələr, sular, nə istəsən vardı. Müalicə də öz axarında davam edirdi. İş yoldaşlarım daim zəng edirdilər, söhbət edirdilər, güldürürdülər, müsbət enerji ötürürdülər. Gördüm, bu qədər dəstək var. Belə vəziyyətdə sağalmaqdan başqa ”çarə” yoxdur.

**Hamıya kömək etmək istəyirəm. Əlimdən gələn qədər...**

**- Məsləhətiniz nədi?**

- Məsləhətim budur ki, xəstəliyə ciddi yanaşın. Dərhal analiz verin, tez üstünə düşün. Virus ağ ciyərlərə nüfuz edəndə, müalicə çətinləşir. Bunun üçün də ilk növbədə analiz tez verilməlidir. Təcili Yardıma, TƏBİB-ə sərf etdilən vaxt uduzulmuş zamandı. İl boyu işləyirik, çalışırıq. Olsun lap 40, 80, 90 manat, ödəyib analizin cavabını tez əldə etmək lazımdır. Elə bilək ki, bir geyimə pul xərcləmişik. Nə bilim, hardasa dostlarla əyləşib nahar etmişik... Mütləq özəl klinikalarda analiz verib cavab almaq lazımdır. Gecikdirmək olmaz. İlk başdan üstünə düşdünsə, xilas olursan. Həm də daha məsləhətdir ki, burundan yaxma analizi götürülsün. Çünki virus burunda olanda tez müəyyən edilir. Ağ ciyərə düşəndə təsbit etmək çətinləşir. Analizin cavabı müsbətdirsə, vaxt itirmədən müalicəyə başlanmalıdır. Xəstəxanaları gözləsək, itirəcəyik, doğmaları, dostlarımızı.

**- Xəstəliyə tutulub sağalanların əksəriyyəti deyir, həyatın qiymətini indi anladıq...**

- Həqiqətən. Bu xəstəlik bizə çox şeyi anlatdı. Biri ilə salamlaşırsan, axşam eşidirsən ki, rəhmətə gedib... Dünyadan heç nə aparmayacağıq. ”Kaş ki”lərlə heç nəyi, heç kimi geri qaytarmaq olmur. Həmkarımız Əmrah Fəqanoğlu rəhmətə getdi, bu mənə çox ağır təsir etdi. Ondan sonra kimin xəstələndiyini eşidirdim, xəbər tuturdum, çalışırdım, nəyləsə yardım edim. Dostumuz Səlim bəy də xəstələndi, təsəvvür edin, bir iynə üçün 2 min manat pul lazım idi. Qənirə xanıma (millət vəkili Qənirə Paşayeva) müraciət etdim, sağ olsun, kömək etdi. Səlimin iynəsi alındı. Bir həqiqəti anladım ki, bir-birimizə bacardıqca möhkəm bağlanmalıyıq. Əl-ələ tutub bir-birimizə yardım etməliyik. İndi gözüm ”xəstə” axtarır. Hamıya kömək etmək istəyirəm. Əlimdən gələn qədər. Bir də əsas odur ki, xəstələnənləri tək qoymayaq. 2 kəlmə xoş söz, ümid verir insana. Xəstələnənlər ümidlərini itirməsinlər.

**Söhbətləşdi: Məlahət Rzayeva**

## Çingiz Abdullayev "Delta" ştamına yoluxub

### Xalq yazıçısı hər kəsi koronavirusa qarşı peyvənd olunmağa çağırıb



**”Səkkiz gün əvvəl COVID-ə yoluxdum. Ən xoşagəlməz olan ”Delta” ştamına. Başım ağrıyırdı, üşütmə hiss etdim”.**

Bu barədə koronavirusa yoluxan Xalq yazıçısı Çingiz Abdullayev öz rəsmi feysbuk hesabındakı paylaşımında bildirib.

”İndi isə ən vacibinə keçək. Dörd ay əvvəl iki doza vaksin qəbul etmişəm, Avropadan sifariş olunan dərmanları, vitaminləri içdim. Nəticədə, xəstəliyi elə də hiss etmədim. Lakin əlbəttə ki, karantində qaldım. Saturasiya 97-98 səviyyəsində idi. Bütün bu müddət ərzində qızdırma, öskürək yox idi və demək olar ki, bütün qoxuları hiss edirdim”, - deyə Çingiz Abdullayev qeyd edib.

Xalq yazıçısı, həmçinin hər kəsi koronavirusa qarşı peyvənd olunmağa çağırıb:

”Axmaq olmayın, vaksinasiyadan imtina etməyin. Bütün ömrümboyu bir dənə belə olsun siqaret çəkməmişəm. Demək olar ki, spirtli içki qəbul etmirəm. Gənc olarkən idmanla çox məşğul olmuşam. Adətən futbola 3-4 saat vaxt ayırıram. Bu, artıq sağlamlıq məsələsidir. Xəstələnmək olar, amma ölmək lazım deyil”.

## Qarış - qarış axtarırlar

### Füzulidən Cəbrayıla gedən yol birinci mərhələ üzrə minalardan tam təmizlənib



**Hazırda durduğumuz ərazi Füzulinin Qarğabazarı kəndidir.**

Burada Füzulidən Cəbrayıl rayonuna gedən yolun minalardan təmizlənməsini həyata keçiririk. Sahənin birinci mərhələsi (3.4 kilometr) artıq yekunlaşıb və istifadə üçün təhvil verilib. Orada artıq müəyyən işlər aparılır, yollar çəkilir.

Bunu Trend-ə açıqlamasında Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) supervayzeri Natiq Əsədov deyib.

Onun sözlərinə görə, sözügedən sahənin ikinci hissəsinin uzunluğu 4.5 kilometrdir: ”Eyni zamanda, bu sahədə 316 min kv/m olan yekun sahənin 289 mini təmizlənib və bu sahədə 174 ədəd partlamamış sursat tapılıb. Həmçinin, bu sahənin 3-cü mərhələsi də var. Bu isə Yal Pirəhmədli sahəsidir, onun da uzunluğu 4.5 kilometrdir. Bu sahə ümumi olaraq 390 min kv/m-dir. Burada da işlər yekunlaşmaq üzrədir. Təxminən bir həftə ərzində işləri başa çatdıracağıq”.

Xatırladaq ki, Türk Şurasına üzv və müşahidəçi dövlətlərin media orqanları ”Azərbaycana Media Tur” çərçivəsində işğaldan azad olunan ərazilərdə səfərdədir.

Səfərdə Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Serbiya və Bosniya və Herseqovinadan olan 20-dən artıq xarici jurnalist iştirak edir. Məqsəd işğal zamanı ermənilər tərəfindən Azərbaycan ərazisində törədilən vəhşiliklər, dağıdılan tarixi abidələr və yerlə yeksan olunan yaşayış əraziləri barədə KİV nümayəndələrinin məlumatlandırılmasıdır.

*Üçgünlük səfər zamanı xarici jurnalistlər Füzuli, Cəbrayıl, Şuşa və Gəncədə olacaqlar.*

# "Şuşa çox hücum görsə də, həmişə qalib gəlib"





## Kərəm Məmmədov: “2022-ci ildə Şuşamızın 270 illiyini qeyd edəcəyik. Bizim üçün bundan gözəl hiss ola bilməz”

**Prezident İlham Əliyev Şuşada Poeziya Günlərinin açılışında bildirib ki, 2022-ci ildə Şuşa şəhərinin 270 illiyi təntənəli şəkildə qeyd ediləcək. Ölkə başçısı vurğulayıb:**

”Şuşanın təməlini, - hamımız yaxşı bilirik, - 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü və milli ləyaqətimizi bərpa etdik”.

**Tarixçi-alim Kərəm Məmmədov ”Şərq”ə açıqlamasında Şuşanın ən qədim və əzəmətli Azərbaycan şəhərlərindən biri olduğunu söyləyib:** ”Şuşa Pənahəli xan tərəfindən əvvəlcə qala şəklində inşa olunub. Məlumdur ki, Şuşamız çox hücum görsə də, hər dəfə buna qalib gələ bilib. Çox sevindiricidir ki, bu əzəmətli şəhərimiz öz sahiblərinə qaytarıldı. Ordumuz 44 günlük müharibədə böyük tarix yazdı, torpaqlarımız düşməndən azad olundu. Müəyyən zaman keçdikdə nəinki Şuşada, digər torpaqlarımızda da təntənəli mərasimlər qeyd ediləcək. Bu gün hər bir vətəndaşımız böyük fəxarət hissi keçirir. Çünki dövlət başçısı da bildirdi ki, 2022-ci ildə Şuşamızın 270 illiyini qeyd edəcəyik. Bizim üçün bundan gözəl hiss ola bilməz”.

**Yeganə Bayramova**

# "Vaksinləşən, amma yoluxan şəxslərdə adətən tromblaşma olmur"

## Çünki orqanizm özü xəstəliklə mübarizə apara bilir




## Şəmsiyyə Namazova: “Peyvənd vurduranların müntəzəm olaraq antitellərini yoxlatması çox yaxşı haldır”

**Koronavirusa yoluxma faktı yenidən artmaqdadır. Bir ara yoluxma sayı xeyli azalanda sevinmişdik. Elə bilmişdik ki, kabus daha bitdi. Amma deyəsən, əsl kabus qabaqda imiş...**

Vaksinləşmə də sürətlə davam edir. Çoxunun ümid yeri də məhz peyvənddir. Elə isə hazırkı tendensiya gələcək üçün nələr vəd edir?

**”Şərq” olaraq bu barədə tibb və fəlsəfə elmləri doktoru Şəmsiyyə Namazova ilə söhbətləşdik:**

**- Yoluxma faktının artmasını nə ilə əlaqələndirirsiniz?**

- Əslində bu, gözlənilən idi. Çünki insanlar pandemiyanın ilk dövrlərindən fərqli olaraq indi məsuliyyətsiz davranırlar. Taksi sürücüləri tibbi maska taxmır, adamlar aralarında sosial məsafə saxlamırlar. Belə olan halda yoluxma sayının artması, əlbəttə, təəccüblü deyil. İlk vaxtlardan deyirəm ki, koronavirusla mübarizə üçün cərimələnmə lazımdır. Görünür, maarifl ənmə işə yaramır.

**- Növbəti qapanma ehtimalı barədə fikirləriniz necədir?**

- Vaksinləşmənin sürətlə getdiyinə görə qapanmanın olacağına inanmıram. Çünki bu, həm də iqtisadiyyata zərbədir. Cüzi məhdudiyyətlər isə istisna deyil. Əsas məsələ indi ümid yerimizin olmasıdır. Bu, peyvənddir.

**- Artıq üçüncü dozanın vurulması gündəmə gəlib. Sizcə, bu, nə qədər məqsədəuyğundur?**

- Antitelin orqanizmdə qalma müddəti altı aydır. İkinci dozanın üzərindən yarım il keçibsə, üçüncünün vurulması lazımdır. Xüsusilə nəzərə almalıyıq ki, yoluxma və ölüm faktı heç də az deyil. Yalnız bir halda vaksinin növbəti dozası ertələnə bilər.

**- Nə vaxt?**

- Ola bilsin, şəxs birinci və ya ikinci dozanı vurdurandan sonra koronavirusa yoluxub. Bu zaman orqanizmdə təbii antitel yaranır və növbəti doza üçün də altı ay gözləmək lazım gəlir. Yeri gəlmişkən, deyim ki, peyvənd vurduranların müntəzəm olaraq antitellərini yoxlatması çox yaxşı haldır.

**- Deməli, vaksin olunanlar da yoluxa bilir?**

- Əlbəttə. Peyvənd xəstəliyin qarşısını almır, sadəcə ağırlaşmaya imkan vermir. Təsadüfi deyil ki, vaksinləşən, amma yoluxan şəxslərdə adətən tromblaşma kimi hallar olmur. Orqanizm özü xəstəliklə mübarizə apara bilir. Pandemiya hələ davam edir. Çıxış yollarımız isə məlumdur və başqa alternativimiz yoxdur.

**Kənan**




# "MEDİA könüllüləri" gəlir

## Elşad Eyvazlı: “Proqram gənc jurnalistlərimizin xaricə çıxış imkanlarının yaradılması üçün də çox önəmlidir”



**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ”MEDİA könüllüləri” proqramına başlayır. Proqram müddətində könüllülərin nəzəri və təcrübi biliklər qazanması üçün Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və müxtəlif media subyektlərində təşkil ediləcək təcrübə proqramları, təlimlər və layihələrdə iştirakı nəzərdə tutulur.**

”MEDİA könüllüləri” proqramı medianın inkişafının gənclər tərəfindən təşəbbüs edilən müxtəlif layihələrlə dəstəklənməsini, gənclərin bu sahədə maarifləndirilməsini təmin edəcək.

**”Modern.az” saytının baş redaktoru Elşad Eyvazlı adıçəkilən proqramın əhəmiyyətini ”Şərq”ə şərh edib. Baş redaktor bildirib ki, Azərbaycan jurnalistikasının qarşısında duran prioritet məsələlərdən biri gənc nəslin savadlı və təcrübəli jurnalist kimi formalaşdırılmasıdır:** ”Hesab edirəm ki, ”MEDİA könüllüləri” proqramı bu işdə rol oynaya bilər. Proqram gənc jurnalistlərimizin xaricə çıxış imkanlarının yaradılması üçün də çox önəmlidir. Yalnız jurnalistika deyil, digər sahələrdə də könüllülük institutunun formalaşdırılmasından sonra yaxşı nəticələrin əldə olunmasının fərqindəyik. Çünki gənclər könüllülük institutu sayəsində qarşıya qoyulan hədəf və məqsədlərə çatmağın vacibliyini dərk edirlər. Proqrama qoşulan bütün gənclərə uğurlar arzu edirəm. ”MEDİA könüllüləri” proqramı böyük nəticələrə nail olunacaq bir layihədir. Cənab Prezident dəfələrlə vurğulayıb ki, Azərbaycan jurnalistlərinin xaricə çıxışı gücləndirilməlidir. Məhz bu proqram vasitəsilə də gənclərin jurnalistika sahəsində bilik və bacarıqlarının artırılması, xaricə çıxışları və operativliyi təmin oluna bilər”.

**Yeganə Bayramova**




# Şuşanın bərpasında bəzi məqamlar nəzərə alınmalıdır

## Nəsiman Yaqublu: "Təkliflərimi bərpa işləri ilə məşğul olan şirkətlərə bildirəcəm"



2022-ci ildə Şuşa şəhərinin 270 illiyi təntənəli şəkildə qeyd ediləcək. Bu barədə Prezident İlham Əliyev Şuşada Poeziya Günlərinin açılışında bildirib. Dövlət başçısı Şuşanın tarixinə də qısaca toxunub və mühüm açıqlamalar verib: "Şuşanın təməlini 1752-ci ildə Pənahəli xan qoyub. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür.

Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı. Bizi gözləyirdi, biz gəlməli idik və gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən ediləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü və milli ləyaqətimizi bərpa etdik". Xatırladaq ki, bir neçə ay öncə Milli Məclisin iclasında çıxış edən deputat Aqil Abbas da Şuşanın 270 illiyinin keçirilməsini təklif etmişdi. Millət vəkili bəyan etmişdi ki, Qarabağ xanlığının və Şuşanın tarixinə laqeyd yanaşmaq olmaz. Tarixçilər də hesab edirlər ki, xalqımız üçün xüsusi əhəmiyyət kəsb edən, qəlbimizdə özünəməxsus yeri olan Şuşa şəhərinin yaranmasının ildönümünü qeyd etmək bir çox cəhətdən vacibdir.

**Tarixçi-alim, professor Nəsiman Yaqublu "Şərq"ə açıqlamasında bildirib ki, Şuşada gedən proseslər, quruculuq işləri, mədəni müəssisələrin və büstlərin açılışı, təməlqoyma mərasimləri tarixi, eyni zamanda psixoloji baxımdan mühüm hadisələrdir. Alim vurğulayıb ki, Şuşa xüsusi yerə, mövqeyə və statusa malikdir:** "Şuşa adi şəhər deyil, böyük mədəniyyət şəhərimizdir. Türk dünyasının mədəniyyət mərkəzinə çevrilməkdə olan bir şəhərdir. Şuşanın 270 illiyinin keçirilməsi həm də o cəhətdən əhəmiyyətlidir ki, biz böyük mədəniyyət mərkəzini erməni işğalçılarından xilas etdiyimizi dünyaya bəyan edirik. Məqsədimiz burada yaşamaqla yanaşı, həm də bəşər kültürünün bir hissəsi olan bu məkanda dəyərlərimizi yaşatmaq, qorumaqdır. Şuşa şəhərinin köhnə memarlıq planları olub. Yenidənqurma prosesində həmin planları ciddi şəkildə nəzərdə saxlamalıyıq. Şuşanın memarlıq planı 3 dəfə dəyişdirilib. Birincisi Pənahəli xanın, ikincisi İbrahimxəlil xanın vaxtında, üçüncüsü isə 1805-ci ildə Kürəkçay müqaviləsindən sonra dəyişdirilib. Qarabağ işğal ediləndən və İbrahimxəlil xan öldürüləndən sonra Şuşanın baş planının dəyişdirilməsinə ermənilərin də təsiri olub. İndiki bərpa dövründə bunu aradan götürməliyik. Orada hansı nüansları təkrarlamaq olmaz, çox yaxşı bilirəm. Təkliflərimi bərpa işləri ilə məşğul olan şirkətlərə bildirəcəm. O vaxt Şuşanı - yuxarı və aşağı hissə adları ilə iki yerə böldülər. Halbuki, nə Pənahəli, nə də İbrahimxəlil xanın dövründə Şuşa bölünməmişdi. Ermənilər rusların köməyi ilə şəhəri bölmüşdülər. Dağlıq hissədə ermənilər yaşadı, aşağı hissəni isə azərbaycanlılara verdilər. Çox yaxşı olar ki, bərpa prosesində bu məqamlar diqqətdən qaçmasın".

**N.Yaqublu vurğulayıb ki, muzeylər yeni sənədlərlə, materiallarla zənginləşməlidir:** "Üzeyir Hacıbəyovun ev muzeyi sovet dövrünün sənədlərindən ibarət olmamalıdır. Son illərdə araşdırdığımız sənədlər, materiallar muzeylərdə yer almalıdır. Mənə müraciət etsələr, o muzeylərə çoxlu sənəd verə bilərəm. Məsələn, Cümhuriyyət dövründə Üzeyir bəyin fəaliyyəti, yazdığı məqalələri, "Azərbaycan" qəzetində yazıları və s. mərhələlər haqqında əlimizdə kifayət qədər yeni materiallar var. Şuşadan təkcə musiqiçilər çıxmayıb axı. Elm adamları çıxıb. Şuşada Ceyhun Hacıbəylinin və Əhməd bəy Ağaoğlunun ayrıca muzeylərini yaratmalıyıq. Əhməd bəy təkcə Azərbaycan yox, bütün türk dünyası üçün böyük işlər görmüş nəhəng şəxsiyyətdir. Ermənilərə qarşı ilk və sistemli Difai təşkilatını yaratmış şəxsdir. Niyə Şuşada onun muzeyi olmasın?! Belə şəxslərin muzeyləri ermənilərə ciddi zərbə olar. Əhməd bəy Ağaoğlunun ev muzeyinin zənginləşməsinə müxtəlif eksponatlarla kömək edə bilərəm. Ceyhun Hacıbəyli Azərbaycanı dünyada tanıdıb".

**Tarixçi qeyd edib ki, Şuşanı çox adam ziyarət edəcək, əcnəbilər gələcək:** "Görsünlər ki, Şuşa necə nəhəng insanları yetişdirib. Hilal Münşi, Haşım bəy Vəzirov Şuşadan çıxmış ziyalılardır. Yusif Vəzir Çəmənzəmənli Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə ilk diplomatı olub. Əbdürrəhim bəy Haqverdiyev Dağıstanda Cümhuriyyətin diplomatı kimi fəaliyyət göstərib. Onları da yada salmalıyıq. Şuşanı mərkəz edərək erməni təxribatçılarına qarşı mübarizə aparmış qəhrəman Xosrov bəy Sultanovun orada heykəli, büstü qoyulmalıdır. Ümumən görülən işlər çox mühümdür, amma Şuşanın 270 illiyinə vurğuladığım işlərlə getsək, daha gözəl və məraqlı olacaq".

*"O vaxt Şuşanı - yuxarı və aşağı hissə adları ilə iki yerə böldülər. Halbuki, nə Pənahəli, nə də İbrahimxəlil xanın dövründə Şuşa bölünməmişdi. Ermənilər rusların köməyi ilə şəhəri bölmüşdülər"*



**İsmayıl Qocayev**




## Bütün qonaqların COVID-19 pasportu olmalıdır

### DİN bu gündən etibarən keçiriləcək toylarla bağlı qaydaları açıqlayıb

**Daxili İşlər Nazirliyi ölkədə toy-nişan mərasimlərinin keçirilməsi ilə bağlı əhaliyə xəbərdarlıq edib.**

Nazirlikdən "Şərq"ə verilən məlumatda bildirilir ki, sentyabrın 1-dən başlayaraq pandemiya şəraitində toy, nişan, ad günü və digər şənlik mərasimlərinin təşkili və keçirilməsi ilə bağlı yeni qaydalar müəyyən olunub.

Təşkil edildiyi yerdən asılı olmayaraq (kafe, restoran, şadlıq sarayı, həyət, mağar və s.) şənlik mərasimləri 150 nəfərədək şəxsin iştirakı ilə keçirilə bilər. Şənlik mərasimlərində iştirak edən yaşı 18-dən yuxarı bütün qonaqların COVID-19 pasportu olmalıdır. Şənlik mərasimlərinə gələn qonaqlar üçün tənəffüs yollarını qoruyan fərdi vasitələrdən məcburi istifadə tələb olunmur.

"icaze.e-gov.az" portalında qeydiyyatdan yalnız ictimai iaşə müəssisələrində təşkil olunan şənlik mərasimləri keçirilməlidir.

## Şahbaz Quliyev ikinci dəfə evlənib

### O, ailə qurduğu xanımın kimliyi haqqında məlumat vermək istəməyib




**2020-ci ilin dekabr ayında erməni girovluğundan azad edilən Şahbaz Quliyev ikinci dəfə evlənib.**

Bu barədə məlumatı Modern.az-a özü təsdiqləyən Ş.Quliyev bildirib ki, toy məclisi təşkil edilməsə də, ailə qurması xəbəri doğrudur. O, ailə qurduğu xanımın kimliyi haqqında məlumat vermək istəməyib.

*Xatırladaq ki, 2014-cü ilin iyul ayında əslən Kəlbəcərdən olan Dilqəm Əsgərov və Şahbaz Quliyev ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər. 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatdan sonra beynəlxalq təşkilatların və Rusiya Sülhməramlı Qüvvələri komandanlığının iştirakı ilə aparılmış danışıqlar nəticəsində erməni tərəfi ilə əsir və girovların "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsi barədə razılıq əldə olunub.*

## Şəkidə sahibsiz it 2 nəfərə xəsarət yetirib

**Şəkidə iki nəfərə sahibsiz it hücum edib.**

APA-nın şimal-qərb bürosunun məlumatına görə, bu gün günorta saatlarında Şəki şəhər sakini 50 yaşlı Rəfayıl Qarabəy oğlu Cəfərov qarın nahiyəsinin yuxarı hissəsinin, rayonun Böyük Dəhnə kənd sakini 60 yaşlı Nazir Şərif oğlu Allahverdiyev sol ayağının baldır nahiyəsinin it dişləməsi xəsarətləri ilə Şəki Rayon Mərkəzi Xəstəxanasına daxil olublar. Müayinə zamanı hər iki şəxsin küçədə sahibsiz itin hücumuna məruz qaldığı məlum olub. R.Cəfərov və N.Allahverdiyevə xəstəxanada lazımi tibbi yardım göstərilib, quduzluq əleyhinə peyvənd vurulduqdan sonra xəsarətləri yüngül olduğundan ambulator müalicə üçün evə buraxılıblar.

# Azərbaycan vaksinindən nə gözlənti var?



**Adil Qeybulla:**
*“Peyvəndin effektivliyini sonradan görəcəyik, təki istehsal olunub ortaya çıxsın”*



**Sərdar Cəlaloğlu:**
*“Ölkəmizdəki texnologiya nə dərəcədə imkan verir ki, belə bir ciddi dərman vasitəsi hazırlaya bilək”*




Bu günlərdə TƏBİB-in İdarə heyətinin sədri Ramin Bayramlı Azərbaycanda ilk dəfə vaksin yaradılmasına başlanıldığını açıqlayıb. O qeyd edib ki, uzun illərdən sonra ilk dəfə ölkəmizdə COVID-19 daxil olmaqla, infeksion xəstəliklərə qarşı yeni mübarizə tədbirlərinin işlənib hazırlanması, diaqnostikası, kimyaterapiyası üçün hüceyrə kulturası tədqiqatlarına start verilib.

**Tibb elmləri doktoru, professor-həkim Adil Qeybulla ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanın hazırlayacağı vaksinlər ”Sputnik” və ”Coronavac” tipli peyvənddir:**

”Yeni innoaktivasiya olunmuş peyvəndlərdir. İstənilən dərman preparatında olduğu kimi peyvəndin hazırlanması üçün də bir neçə parametrlər nəzərə alınmalıdır. Birincisi, təhlükəsizlik parametri, ikincisi, effektiv olması, üçüncüsü isə yan təsirlərin az olmasıdır. Azərbaycan istehsalı olan vaksinlərin təhlükəsizlik və effektivlik kriteriyalarına nə dərəcədə cavab verəcəyi müəyyən çalışmalarla əldə olunmalıdır. Məsələn, bu çalışmalardan effektiv çıxan 4 vaksin hazırda ÜST-nin reyestrinə daxil olub. Onlardan ən məhşur alman vaksinidir və effektiv sayılır. Hələlik isə digər vaksinlərlə bağlı dəqiq fikir söyləmək olmaz. Məsələn, Qazaxıstanın vaksini də kifayət qədər effektivdir və ”Sinovac” qədər keyfiyyətlidir. Hesab edirəm ki, Azərbaycanın vaksin istehsalında iştirakı pandemiya ilə mübarizə işinə bir töhfədir. Peyvəndin effektivliyini isə sonradan görəcəyik, təki istehsal olunub ortaya çıxsın. Ölkəmizin adının bu prosesdə hallanması da böyük hadisədir”.

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri, ixtisasca həkim olan Sərdar Cəlaloğlunun fikrincə, Azərbaycanın istehsal etdiyi peyvənd uyğun texnologiya üzrə hazırlansa, əlbəttə ki, effektiv ola bilər:** ”Lakin dəqiq bilmirəm, ölkəmizdəki texnologiya nə dərəcədə imkan verir ki, belə bir ciddi dərman vasitəsi hazırlaya bilək. Çünki bu işin görülməsi üçün xüsusi şərtlər var. Ancaq texnologiya imkan verirsə, təbii ki, milyonlarla dollar pul verib digər ölkələrdən vaksin almaq düzgün olmazdı. Onsuz da xəstəliyin nə zaman qurtaracağı bəlli deyil. Azərbaycanın Türkiyə ilə bir yerdə birləşib vaksin istehsal etməsi də yaxşı variant ola bilər. Amma bu vaksinlərin nə dərəcədə effektiv olacağını dəqiq demək hələ tezdir”.

**Yeganə Bayramova**

## 44 nəfər vəfat edib

### Azərbaycanda daha 3 788 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 3 788 yeni yoluxma faktı qeydə alınıb, 3 228 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 44 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 424 891 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 366 126 nəfər müalicə olunaraq sağalıb, 5 636 nəfər vəfat edib, aktiv xəstə sayı 53 129 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 19 693, ötən müddət ərzində isə ümumilikdə 4 461 937 test aparılıb.

## İranda 100 mindən çox tibb bacısı COVID-19-a yoluxub

**İranda 100 min nəfərdən çox tibb bacısı yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxub.**

APA-nın Tehran bürosunun xəbərinə görə, bunu İranın Tibb bacısı işçiləri sisteminin İdarə Heyətinin sədri Armin Zareiyan deyib.

O bildirib ki, koronavirusa yoluxan tibb bacılarının 30 min nəfəri Tehrandakı xəstəxanalarda çalışıb.

A. Zareiyan qeyd edib ki, peyvənd edilmiş 30 tibb bacısı koronavirusun ”Delta” ştammına yoluxub.

O qeyd edib ki, 24 saatlıq fəaliyyət tibb bacılarını yorub və onların depressiyaya düşmək təhlükəsi var.

*Xatırladaq ki, ekspertlər İranda tibb bacılarının sayının normadan aşağıda olduğu qənaətindədir. Ekspertlər bildirir ki, tibb bacılarının maaşları onların rifahını təmin edəcək həddə deyil. Bu səbəbdən də İrandakı tibb bacıları başqa ölkələrdə xidmət etmək üçün ölkəni tərk edir.*

## Alim Qasımovun kürəkəninin məhkəməsi keçirilib

### Basqalda axtarış zamanı evdən 2 min 600 dollar və 5 min manat pul aşkar edilib



**Bakı Ağır Cinayətlər Məhkəməsində Xalq artisti Alim Qasımovun kürəkəni, dələduzluqda təqsirləndirilən Elnur Mövlamovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Trend-in məlumatına görə, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə şahid qismində ifadə verən Nəsimi Rayon Polis İdarəsinin 21-ci Polis Bölməsinin əməkdaşı bildirib ki, təqsirləndirilən şəxs Elnur Mövlamov əvvəldən tanımayıb və xüsusi əməliyyat tədbirləri nəticəsində o Nərimanov rayonu ərazisində yaşadığı evdə saxlanılıb.

Şahid bildirib ki, təqsirləndirilən şəxs saxlanılan zaman oğurladığı pulu İsmayıllı rayonunun Basqal kəndində saxladığını deyib, qızıl-zinət əşyalarını isə polisə təqdim edib. Basqalda axtarış zamanı evdən 2 min 600 dollar və 5 min manat pul aşkar edilib. Proses sentyabrın 7-də davam etdiriləcək.

*Qeyd edək ki, məhkəmədə zərərçəkmiş qismində Xalq artisti Alim Qasımovun həyat yoldaşı Tamilla Qasımova və və qohumu Rəşadət Fərzəliyev tanınıb.*

*Xatırladaq ki, E.Mövlanov Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla törədilən dələduzluq) və 180.2.4 (insanların həyatı və ya sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etməklə törədilən soyğunçuluq) maddələri ilə ittiham olunur.*

# Karantin cərimələri ləğv olunmalıdır

## Azərbaycan Gürcüstan nümunəsindən istifadə edə bilər

Gürcüstan hökuməti COVİD-19 pandemiyasına görə elan edilmiş karantin rejimini pozanların cərimələrini silib. Hökumətin qərarı ilə 245 min fiziki şəxs və 344 min hüquqi şəxs cərimələrdən azad edilib. Məlum olduğu kimi Azərbaycanda da karantin qaydalarını pozan vətəndaşlara müxtəlif məbləğdə cərimələr tətbiq olunub.



**“Pandemiya səbəbindən xeyli insan zərər görüb, maddi gəlirləri azalıb, yaxud tamamilə kəsilib”**

Sosial şəbəkələrdə dəfələrlə cərimələrin silinməsi barədə çağırışlara rast gəlmişik. Bəzi vətəndaşlar onlara tətbiq edilən cərimələrin əsassız olduğunu, üstünə faiz gəldiyini, yığılan məbləği ödəyə bilmədiklərini dilə gətirərək borcun bağışlanmasını tələb edirlər. Rəsmi qurumlar isə istənilən halda vaxtından və yerindən asılı olaraq tətbiq olunan cərimələrin ödənilməli olduğunu söyləyirlər. Daxili İşlər Nazirliyinin sözçüsü Elşad Hacıyev açıqlamasında bildirib ki, karantin rejimi qaydalarını pozanlar cərimələri vaxtında ödəməsələr axtarışa veriləcəklər. Onun sözlərinə görə, cərimələrin ödənməsi üçün ədliyyə orqanları da prosesə cəlb olunacaq. Bir sıra şəxslər də cərimələrin silinməsinə qarşı çıxırlar. Onların fikrincə, cərimələrin ləğv olunması insanların məsuliyyətsizliyini artıracaq və pandemiyanın tələblərinə laqeydlik nümayiş olunacaq.

**Gündəmə gələn təkliflərlə bağlı ”Şərq”ə danışan AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli bildirib ki, Azərbaycan hökuməti də qonşu Gürcüstan kimi qərar verə bilər. Analitikin sözlərinə görə, cərimələrin silinməsi dövlət üçün heç bir problem yaratmır:** ”Azərbaycanın dövlət büdcəsi Gürcüstandan dəfələrlə çoxdur. İqtisadi-sosial inkişaf baxımından qonşu dövlətdən qat-qat güclüyük. Təbii sərvətlər ölkəsiyik. Gürcüstanı neftlə və digər məhsullarla biz təmin edirik. Bütün bunlara rəğmən, cərimələrin silinməsi prosesi Azərbaycanda yox, Gürcüstanda baş verir. İnsanların sosial durumunu nəzərə almaq lazımdır. Pandemiya səbəbindən xeyli insan zərər görüb, maddi gəlirləri azalıb, yaxud tamamilə kəsilib. Müharibədən çıxmış ölkəyik. İndiki çətin şəraitdə cərimələrin silinməsi müsbət addım olardı. Yaxşı nümunələri tətbiq etməkdən çəkinməməliyik. Əmin olun, belə qərar olarsa, insanlar çox məmnun qalacaq”.

**İsmayıl Qocayev**



# Müharibə real görünmür

## Vaşinqtona iki ölkə ilə eyni anda mübarizə aparmaq çox çətindir

"Üçüncü Dünya müharibəsi başlaya bilərmi" sualı son illərdə tez-tez səslənir. Həqiqətən dünyada baş verən kataklizmlər, müharibələr, əzələ nümayişləri, nüvə dövlətlərinin sayının artması gedişatın təhlükəli olduğunu göstərir".

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu qeyd edib ki, "Ərəb baharı" Suriyaya çatdıqda böyük dövlətlərin qarşıdurması daha da gücləndi:

”Bu halda da Üçüncü Dünya müharibəsindən danışanların sayı artdı. İş o yerə çatdı ki, Roma Papası da ”Üçüncü Dünya müharibəsi” ifadəsini səsləndirmək məcburiyyətində qaldı. Üçüncü Dünya müharibəsi” ilə bağlı yeni baxış Amerikadan gəldi. ABŞ-ın Hərbi-Dəniz Akademiyasının Strateji təhlillər kafedrasının müdiri Ceyms Holms ”Nəşnl İnterest” dərgisində yayımladığı məqaləsində Üçüncü Dünya müharibəsinin başlanğıc nöqtəsini fərqli məkanda işarə edib: ”Rusiya və Çinin Yaponiyaya qarşı ərazi iddiası əsasında bölgədə gərginlik artacaq və bu, Üçüncü Dünya müharibəsinə təkan verəcək”.

Amerikalı alimin sözlərinə görə, Moskva və Pekin Yaponiya torpaqlarının bir hissəsinə ərazi iddiası irəli sürə bilərlər: ”Moskva ilə Tokio arasında Kuril adalarına görə mübahisə davam edir. Bu mübahisə Moskvanı Tokioya qarşı əks-planlar hazırlamağa sövq edir. Bundan başqa, Pekin Yaponiyanın Senkaku adasına da iddia edir. Aydındır ki, əgər Rusiya və Çin adalara görə Yaponiyaya qarşı vahid cəbhə açarlarsa, Tokionun strateji müttəfiqi ABŞ işə qarışmalı olacaq. Amerikalı alim Vaşinqtonun Tokioya dəstəyini artırmasının vacibliyini bildirib. Onun sözlərinə görə, əks halda Çin Rusiya ilə birgə Yaponiyaya qarşı aqressiyanı gücləndirəcəklər". Politoloqun sözlərinə görə, Yaponiyanın hər hansı bir dövlətə qarşı müharibə aparmaq planı yoxdur: ”Buna baxmayaraq, Tokio Kuril adalarının geri qaytarılması siyasətindən əl çəkmir və Pekinin ona qarşı ərazi iddiasını rədd edir. Pekin isə hesab edir ki, Yaponiya İkinci Dünya müharibəsinin nəticələrindən hələ dərs çıxarmayıb. Yəni Pekinin fikrincə, əgər Yaponiya İkinci Dünya müharibəsində məğlub olubsa, üstündən uzun onilliklər keçdikdən sonra da Tokio hələ də məğlubiyyətin acısını yaşamalı və haqqını tələb etməməlidir. Yaponiya keçmiş səhvlərindən nəticə çıxarıb, aqressiv siyasət yürütmür, müharibələrdə iştirak etmir, nüvə dövləti olmağa çalışmır və s. Eyni sözləri Rusiya və Çin haqqında demək mümkün deyil. Bu arada, bəzi mütəxəssislərin fikrincə, Vaşinqton Moskva ilə münasibətlərdə strateji sabitliyə nail olmağı arzulayır. Ancaq Moskva və Pekinin siyasəti hələ ki, strateji sabitliyə imkan vermir. Vaşinqtonda onu da anlayırlar ki, Amerikanın həm Rusiya, həm də Çinlə mübarizə aparması çətindir. Bu siyasət Moskva ilə Pekini bir-birinə daha da yaxınlaşdırır. Amerika keçmişdə kommunist Çinlə münasibətləri normallaşdıraraq kommunist SSRİ ilə mübarizə apardı. Vaşinqtonun 1970-1980-ci illərdə yürütdüyü bu siyasət bəhrəsini verdi, SSRİ dağıldı. İndi isə əksinə, Vaşinqton Çini hədəf seçərək Rusiya ilə münasibətlərdə bütün çətinliklərə baxmayaraq, dialoqunu genişləndirməyə çalışır. Ancaq Kreml son illərdə ətrafda o qədər problem yaradıb ki, Vaşinqtonla dialoq alınmır. Kreml bunun əvəzində Pekinlə müttəfiqliyi gücləndirməyə çalışır. Avqustun 13-də Çində Rusiya ilə birgə hərbi təlimlər başladı. Təlimlərdə hər iki ölkədən 10 min hərbçi və yüzlərlə hərbi texnika iştirak edib”.

### “Moskva və Pekinin siyasəti hələ ki, strateji sabitliyə imkan vermir”

**Aynurə Pənahqızı**

# Sabitlikdən danışmaq hələ çox tezdir

## Əfqanıstan Pakistanın təsir dairəsindədir



**“Taliban” sözçüsü Zabihullah Mücahid Amerika Birləşmiş Ştatlarının Əfqanıstanda məğlub olduğunu və məqsədlərinə çata bilmədiyini açıqlayıb. ”Taliban” rəsmisinin çıxışını ”1TV News” telekanalı yayımlayıb. Bununla yanaşı, Zabihullah Mücahid hərəkatın ABŞ-la yaxşı münasibətlər qurmaq niyyətində olduğunu da əlavə edib.**

Görünür, Əfqanıstandakı yeni hökumət beynəlxalq əlaqələrini qurmaqda iddialıdır.

**BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli Əfqanıstanda baş verənlər barədə ”Şərq”ə danışıb:** ”ABŞ-ın Əfqanıstana gəlməsində məqsəd 11 sentyabr terrorundan istifadə edərək Çinə və Hindistana nəzarəti ələ keçirmək idi. Bu mənada uğurlu addım atılmışdı, amma proseslər düzgün hesablanmadı. Yerli əhali ilə münasibətlər normal olmadı. Proseslər regionun sabitliyə meyilli olmadığını göstərdi. Xüsusilə ABŞ Əfqanıstanda narkotik becərilməsini nəzarətə götürə bilmədi, əksinə, göz yumdu. Hətta Vaşinqton bundan Moskvaya qarşı istifadə etmək istədi və xeyli bacardı. Onu da nəzərə almaq lazımdır ki, ABŞ əfqan ordusunu milli ruhda formalaşdıra bilmədi. Muzdlu qoşunun yaradılması istənilən nəticəni vermədi. Beləliklə, ABŞ faktiki olaraq Əfqanıstanda məğlubiyyətə uğradı. Bu, düşünülmüş, idarəolunan xaos deyil”.

**S.Məmmədli, ”Taliban”-ABŞ əlaqələrinin perspektivindən də danışıb:** ”Sözügedən radikal qruplaşma hakimiyyətinin əvvəlki dövründən fərqli olaraq bu dəfə beynəlxalq əlaqələrinə xüsusi diqqət edir. Görünür, səhvlərindən nəticə çıxarıb. ”Taliban” rəhbərliyindən bir neçə şəxs ABŞ-la əməkdaşlıqda maraqlı olduğunu deyib. Bu, proseslərin gedişindən asılıdır. ”Taliban” ölkədə stabilliyi qorumağı bacarsa, əməkdaşlıq alınacaq. Yox, üstünlük şimal alyansının əlinə keçsə, buna inanmıram”.

**Professorun fikrincə, Əfqanıstandakı proseslərdə Pakistanın da rolu var:**

”Əfqanıstan geniş mənada Pakistanın təsiri altındadır. Milli əlaqələr özünü göstərir. İkinci bir tərəfdən, ”Taliban”ın yetişməsində Pakistan xüsusi xidmət orqanları da mühüm rol oynayıblar. Deməli, İslamabad Əfqanıstana nüfuz imkanına malikdir. Hələlik səssiz qalmasının səbəbi də elə budur - proseslərin onun nəzarəti altında cərəyan etməsi. Fikrimcə, Əfqanıstandakı yeni hakimiyyətin Türkiyəyə müsbət mesajları da məhz Pakistanın təsiri ilə olur”.

**Kənan Novruzov**

# Erməni bloger etiraf edir

## “Sarkisyan və Koçaryanın Azərbaycana qarşı yürütdüyü zorakı və vandal siyasətin sonu belə olmalıydı”

### “Ermənistan üçün yeganə çıxış yolu xalqı və dövləti uçuruma aparan yanlışlıqlara əsla qayıtmamaq və keçmiş səhvlərdən dərs çıxartmaqdır”

Ermənilər özləri də mənsub olduqları toplumun hansı vəhşiliklərə əl atdıqlarını etiraf etməyə başlayıblar. Erməni bloger Roman Baqdasaryan Azərbaycan torpaqlarının işğalı zamanı yaşanmış qandonduran olaylardan bəhs edib. O deyib ki, ermənilər işğal etdikləri ərazilərdəki qəbiristanlıqları qazıb, meyitlərin ağzındakı qızıl dişləri oğurlayaraq, əridib külçə halında Ermənistana xammal kimi satıblar:

”Ermənilər bunun bədəlini ödəməli olacaqlarını bilməliydilər. Ermənistanda hakimiyyətdə olmuş Sarkisyan və Koçaryanın Azərbaycana qarşı yürütdüyü zorakı və vandal siyasətin sonu belə olmalıydı. 44 günlük müharibə zamanı dağıdılmış qəbirlərin və təhqir olunmuş insan cəsədlərinin canlı şahidi olan Azərbaycan əsgərinin qisasçılıq hissini başa düşmək lazımdır. Ermənilər işğal etdikləri ərazilərdəki qəbiristanlıqlardakı məzar daşlarını da sökərək üstündəki yazıları siliblər və onları material şəklində satıblar”. Baqdasaryan əlavə edib ki, o, Azərbaycan torpaqlarında bu sayda məscidlərin olmasından xəbərdar olmayıb: ”Yanlız müharibədən sonra xarici KİV-lərdə yayımlanan materiallardan sonra anladım ki, ermənilər məscidləri və dini abidələri viran qoyaraq yer üzündən siliblər. Buna görə ermənilər cavab verməli olacaqlar”.



**Düşmənin etiraflarını ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Anar İmanov deyib ki, Ermənistan bütün vəhşi əməllərinə görə cavab verməlidir və bu, gec-tez baş verəcək.** Analitik bildirib ki, iki il əvvələ kimi Ermənistan fikirləşirdi ki, status-kvo əbədi qalacaq və Azərbaycan öz torpaqlarını işğaldan azad edə bilməyəcək: ”Mənfur düşmənin məkirli planları baş tutmadı. İllərlə işğalda saxlanılan torpaqlar cəmi 44 gün ərzində azad olundu və həqiqi yiyəsinə qayıtdı. Yenidənqurma işləri elə sürətlə aparıldı ki, Ermənistan buna təəccübünü gizlətmədi. İndi qalır, ermənilərin öz cinayətlərini dilə gətirmələri və peşmanlıq ifadə etmələri. Səhvləri etiraf etmək üçün siyasi iradə, vicdan və kişilik lazımdır. Hələ ki, Ermənistandan nə siyasi iradə, nə də kişilik görmüşük. Ermənistan rəhbərliyi özünü elə aparır ki, sanki acınacaqlı məğlubiyyətlə üzləşən bunlar deyil. Geriyə yol yoxdur, irəli baxmaq lazımdır. Ermənistan üçün yeganə çıxış yolu xalqı və dövləti uçuruma aparan yanlışlıqlara əsla qayıtmamaq və keçmiş səhvlərdən dərs çıxartmaqdır. Ermənistan Azərbaycanın bütün şərtlərinə qeyd-şərtsiz əməl edərsə, müəyyən məsələlərə yenidən baxmaq olar. Lakin düşmən bu günə kimi etdiyi bütün cinayətlərinə görə mütləq cəzalanmalıdır. Çünki belə cinayətlərin bağışlanılması mümkünsüzdür”.

**A.İmanova görə, yekun sülh müqaviləsinin imzalanmasında Ermənistan daha maraqlı olmalıdır:** ”Paşinyan hökuməti diktə etdiyimiz şərtlərə uyğun sülh müqaviləsinə razı olarsa, hansısa konstruktiv danışıqlardan, əməkdaşlıqdan söhbət gedə bilər. Kommunikasiyaların bərpası və regional əməkdaşlıq üçün ilk növbədə ermənilər revanşist düşüncədən uzaqlaşmalı, Azərbaycan xalqına nifrətə son verməlidirlər. Əks halda bölgədə normal münasibətlər üçün çox gözləməli olacağıq”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**



# Vaqif Poeziya Günləri mədəniyyətimizin təntənəsidir

## Şuşada görülən işlər gözəl gələcək vəd edir, hamımız o gələcəyin şahidləri olacağıq

Mədəniyyətimizin beşiyi Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqımıza elan edən müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əziz, Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq. Biz səni, dirçəldəcəyik" sözləri hər bir azərbaycanlının qəlbində əbədi iz qoydu. Cənab Prezident həmişə olduğu kimi yenə də sözünün üstündə durdu.

Bunu Şuşada, eləcə də işğaldan azad edilmiş bütün Qarabağda aparılan quruculuq işləri sübut edir. Prezident həmçinin Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edib. Və o gündən aparılan bütün işlər Şuşanın məhz Azərbaycan şəhəri, mədəniyyətimizin beşiyi və paytaxtı olduğunun təsdiqidir. Bu günlər Şuşada keçirilən Vaqif Poeziya Günləri də həmçinin. Vaqif Poeziya Günləri avqustun 30-da Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak etdilər. Eyni gündə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin abidəsinin açılışı oldu. Prezident və birinci xanım həmçinin yenidən bərpa edilmiş Şuşa Xalçaçılıq Qalereyasında sərgilənən mədəniyyət inciləri sərgisi ilə də tanış oldular. Cənab Prezident Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı Azərbaycan mədəniyyət tarixində silinməz izlərini bir daha xatırlatdı: "Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini, - hamımız yaxşı bilirik, - 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik". Prezident xatırlatdı ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını ulu öndər Heydər Əliyev vermişdi. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də burada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdu: "Bu, sıradan olan hadisə deyildi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki, bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. O zaman Ulu Öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdı və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdı".

Şuşa azad edildikdən sonra bura ilk səfərində cənab Prezident Vaqifin məqbərəsinin bərpası, Vaqif Poeziya Günlərinin, "Xarıbülbül" festivalının yenidən keçirilməsi, Üzeyir bəyin ev-muzeyinin, Bülbülün evinin, Xan qızı bulağının bərpası barədə göstərişlər verdi və özü şəxsən işlərin gedişi ilə tanış oldu. İşğal zamanı ermənilər tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri Şuşaya gətirildi. Şuşada 3 məscid - Yuxarı Gövhər Ağa, Saatlı və Aşağı Gövhər Ağa məscidlərinin təmiri başa çatmaq üzrədir. Otellər, mehmanxanalar tikilir. Bütün bunlar Şuşanın dirçəlişinin təsdiqidir.

**İstedadlı jurnalist, əslən Şuşalı Kəmalə Cahidqızı "Şərq"ə açıqlamasında Azərbaycan mədəniyyətinin Şuşadakı təntənəsindən qürur hissi keçirdiyini dedi:**

- Şuşada keçirilən istənilən tədbir, miqyasından asılı olmayaraq, bir təntənədir. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi, 1 ildən də az bir müddətdə bir-birinin ardınca bilavasitə Prezidentin iştirakı ilə dövlət tədbirlərinin keçirilməsi Şuşaya verilən dəyərin göstəricisidir. Qısa müddətdə çox böyük işlər görülüb. Ən diqqət çəkənsə budur ki, işlər məhz planlı şəkildə görülüb. Əslində istər "Xarıbülbül" festivalının, istər Vaqif Poeziya Gününün, Üzeyir Hacıbəyovun heykəlinin, Bülbülün ev-muzeyinin açılışı, 2022-ci ildə Şuşanın 270 illiyinin keçirilməsi ilə bağlı hazırlıq və s. dünyaya verilən "biz bu müqəddəs şəhərin əsl sahibləriyik", mesajıdır. Şuşa yaranışından çal-çağırlı, mədəni, ədəbi-bədii tədbirlərin məskəni olub. Bir məqamı qürurla vurğulamaq istərdim ki, Şuşada ermənilərin dağıtdığı, yararsız hala saldığı bütün tarixi və mədəni abidələr, yaşayış binaları, otel və s. məhz öz formasında, Şuşanın özünəxas memarlığına uyğun olaraq bərpa edilir. Bu məni xüsusilə sevindirir. Bir sözlə, Şuşada görülən işlər gözəl gələcək vəd edir. Hamımız o gələcəyin şahidləri olacağıq.

> Ən diqqət çəkən məsələ odur ki, mədəniyyətimizin paytaxtında işlər çox planlı şəkildə görülür

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Şuşadan inciməzlər

## "Sosial şəbəkədə "döşəyirlər", siyahı tutanların canına"



**Akif Əhmədgil:**
*"Əvvəlcədən adım siyahıda olmasaydı, heç təsir etməzdi"*

**Şuşaya getməyənlər yenə inciyib. Şuşa sevgisi belədir... Hamı ona can atır. Amma o hamını "qəbul etmir". Niyə? Çünki Şuşanın əvəzindən başqaları danışır.**

"Sən dayan, biz bilirik, kim getməlidir, kim yox", deyirlər. Neyləsin, Şuşa?! Qalibdir. Amma onun əvəzinə qərar verənlər var axı!.. Dediyim kimi, bir xeyli incik düşənlər var. Gizlətmirlər də. Sosial şəbəkədə "döşəyirlər", siyahı tutanların canına. Siyahı tutanlar kimlərdi, o da hələ bilinmir. Kimsə məsuliyyəti üzərindən atmaq üçün yuxarını nişan verir. Yəni "bizlik deyil, siyahı "yuxarı"dan tərtib olunub". Bilmirsən, düz deyirlər, yoxsa, yox. Şuşaya - Vaqif Poeziya Günlərinə gedənlər hələ qayıtmayıb. Narazılarsa, narazılıqlarını biruzə etməkdədir. Dəyərli ziyalımız, şair Akif Əhmədgil də sosial şəbəkə üzərindən incikliyini bəyan edib:

"..Şuşaya gedən şairlərin siyahısından mənim adımı da siliblər. Görəsən, adımı həmin siyahıya niyə salmışdılar və niyə sonradan silmək qərarına gəliblər?.. Sadəcə, adsilən oğlanın nəzərinə çatdırmaq istəyirəm ki, iki ay sonra Portuqaliyanın Lissabon, sonra Polşanın Krakovo, daha sonra Yaponiyanın Tokio şəhərinə səfərim var.. İNŞALLAH... Ad silən oğlan bacarırsa, adımı həmin syahıdan da çıxarsın. Yaxud Şuşaya göndərdiyi şairlərdən heç olmasa, birinin adını həmin siyahıya əlavə eləsin... Deyirəm, Kəramətinə şükür, ay Qəşəm.. Eşitdim, sənin də adını siyahıdan çıxarıblar, Qəşəm Nəcəfzadə.. Çanın sağ olsun.. Otuz il dözmüşük. Bir otuz il də dözərik".

**Akif bəy "Şərq"ə açıqlamasında adının siyahıdan çıxarılmasını Şuşa səfərinə 1 gün qalmış bildiyini dedi:**

- 1 ay əvvəl AYB-nin mətbuat katibi Xəyal Rza mənə zəng etdi və dedi ki, adım siyahıdadır. Bunu da deyim ki, təxminən bir ay əvvəl Yazıçılar Birliyinə getmişdim. Toğrul Kərimli kimi dəyərli dostumuz var. Şuşa döyüşlərində, Suqovuşanın alınmasında iştirak edib. Medallarla təltif olunub. Həm də şairdi. Yazıçılar Birliyində İlqar Fəhmi ilə görüşdüm, Toğrulun da adının Şuşaya gedənlərin siyahısına salınmasını istədim. Dedim ki, mənim adımı çıxarın, onu salın. Şuşada olmaq hamıdan artıq onun haqqıdır. İlqar bəy də dedi ki, hələ qoy əvvəlcə üzv olsun, sonra. İndi baxıram ki, AYB üzvü olmayanlar da Şuşaya gedib. Nəysə... 2 min üzvü var AYB-nin. Hamını aparası deyillər. Amma mənə təsir edən adımın əvvəlcə siyahıya salınıb, sonra çıxarılmasıdır. Adama bu təsir edir. Əvvəlcədən adım siyahıda olmasaydı, heç təsir etməzdi. Amma adama ümid verib, sonra ümidini üzmək, yaxşı deyil.

**A.Əhmədgil qeyd etdi ki, Şuşaya gedən şair və yazıçıların siyahısının məhz AYB rəhbərliyi tərəfindən tərtib edildiyini güman edir:**

- Çox yaxşı bilirəm ki, bu siyahını AYB rəhbərliyi tərtib edib. Kimi istəyiblər salıblar siyahıya, kimi istəməyiblər çıxarıblar. Neyləyək, canları sağ olsun... Şuşaya mən özüm də gedə bilərəm. İndi olmasın, 1 ay sonra olsun. Onsuz da Şuşa bizimdir.

**Məlahət Rzayeva**

**Natiq Cəfərli:**
“Qiymət artımının inzibati yolla qarşısını almaq mümkün deyil”

# Bahalaşma bazarda əl "yandırır"

## Ərzaq inflyasiyası artıq 5 faizi keçib

**Azərbaycanda bu il ümumi qiymət artımının 2017-ci ildən sonra ən yüksək səviyyəyə çatacağı gözlənilir. Xatırladaq ki, 2017-ci ildə qiymətlərin artımı 12,9 faizə yüksəldikdən sonra növbəti ilərdə azalaraq 2-3 faiz intervalında qeydə alınıb.**

İnflyasiya 2018-ci ildə 2,3 faiz, 2019-cu ildə 2,6 faiz, 2020-ci ildə 2,8 faiz olub. 2021-ci ilin ilk 4 ayının nəticələrinə əsasən, bahalaşma səviyyəsi 4 faizə çatıb. Bu ilin aprelində qeydə alınan qiymət artımı isə əvvəlki ilin eyni ayına nisbətən 4,3 faiz olub. Dinamika göstərir ki, 2021-ci ilin ikinci yarısında bahalaşma sürəti bir qədər də güclənəcək. Bunu şərtləndirən bir sıra amillər var. Birinci əsas amil dünyada əmtəə qiymətlərinin yüksəlməsidir. 2021-ci ilin iyunun 4-nə olan məlumata əsasən, illik müqayisədə düyü istisna olmaqla bütün əmtəələr bahalaşıb. Bahalaşma sürəti əksər əmtəələrdə 20-30 faizi ötür. Bu dərəcədə yüksək bahalaşmada pandemiya ilə əlaqədar istehsalın azalması və son aylarda qlobal tələbin güclənməsi mühüm rol oynayıb. Eyni zamanda neftin dəyərinin son bir ildə 70 faiz yüksəlməsi də bütün əmtəələrin maya dəyərinin artmasına səbəb olub. Daha çox bahalaşma ərzaq mallarında müşahidə edilir. Ərzaq mallarındakı mövcud qiymət səviyyəsi son 10 ilin ən yüksək səviyyəsidir. Azərbaycan ərzaq və qeyri-ərzaq mallarının təxminən 38 faizini idxal edir. Bu, yüksək göstəricidir. Ölkəmizə idxalın həcmi böyük olduğundan xaricdə baş verən qiymət artımları idxal yolu ilə sürətlə Azərbaycana da daxil olur. Ölkəmizdə bahalaşmanın sürətlənməsini şərtləndirən digər mühüm amil daxili tələbin güclənməsidir. Bu il karantin tədbirlərinin yumşalması müşahidə edildi. Qeyd edək ki, məhdudiyyətlərin azaldılması iqtisadi fəallığı artırdığından iqtisadiyyatın gəliri yüksəlir və nəticədə ticarət əməliyyatlarının, pullu xidmətlərin dövriyyəsi böyüyür. Daha çox pul xərclənməsi bahalaşmanı dəstəkləyir ki, bunu da gündəlik həyatda və statistik məlumatlarda görürük. Daxili tələb 2021-ci ilin ikinci yarısında bir qədər də güclənəcək. Bankların kredit qoyuluşunu artırması, dövlət büdcəsindən xərclələrin iyul ayından sonra artması, həmçinin karantinin bir qədər də yumşaldılması tələbin güclənməsində mühüm rol oynayacaq. Beləliklə, xarici və daxili amillərin təhlili göstərir ki, 2021-ci ildə bahalaşma səviyyəsi əvvəlki illərdən yüksək olacaq. Bu il ümumi qiymət artımının 5 faizə çatması mümkün görünür. Bəs genişmiqyaslı bahalaşmanın qarşısını almaq mümkündürmü?



**Azərbaycanda əsasən ərzaq məhsullarının son bir ildə kifayət qədər böyük sürətlə bahalaşdığını vurğulayan iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, rəsmi rəqəmlərə görə, ərzaq inflyasiyası artıq 5 faizi keçib**. Ekspert qeyd edib ki, ümumilikdə qeyri-ərzaq və xidmət sahələrini də nəzərə alsaq inflyasiya rəqəmləri son illərin ən yüksək göstəricisindədir: ”Bunun obyektiv səbəbi ondan ibarətdir ki, pandemiyada çox zaman sərhədlərin qapalı olması, logistikanın bahalaşması dövlətlərin daha çox daxili bazarda qoruyucu siyasət yürütməsi ərzaq indeksinin dünyada bahalaşmasına səbəb olub. Yəni obyektiv səbəb bundan ibarətdir. Amma Azərbaycanda təsir göstərən subyektiv səbəblər daha çoxdur. İnhisarçılığın hələ də qalması, məmur biznesi, rəqabətsizlik mühiti, gömrük və vergi siyasətinin doğru qurulmaması nəticə etibarilə Azərbaycanda qiymətlərin yüksəlməsinə səbəb olan əsas amillərdir. Bu il dövlətin verdiyi qərarların da qiyməti artımına ciddi təsiri olub. Bu ilin yanvar ayında dizel yanacağının qiymətinin birdən-birə 34 faiz artdı”.

**N.Cəfərli əlavə edib ki, dalğavari şəkildə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalında və daşınmasında ciddi bahalaşma oldu ki, bu da maya dəyərinin yüksəlməsinə gətirib çıxarıb:** ”Çünki kənd təsərrüfatı sahəsində məhsul istehsalının maya dəyərinin təqribən 40-45 faizini məhz dizel yanacağı təşkil edir. Dizel yanacağının qiymətinin artması istər-istəməz bu sahədə qiymət artımını sürətləndirən əsas amillərdən birinə çevrildi. Yəni buna Azərbaycan daxilində baş verən proseslər daha çox təsir göstərir. Qiymət artımının inzibati yolla qarşısını almaq mümkün deyil. Yəni dövlətin müdaxiləsi, dövlətin qiymət qoyması heç də doğru deyil. Biz dövlətin qiymətə müdaxiləsini sovetlər zamanında şahid olmuşuq. O zaman dövlət tərəfindən qiymətlər müəyyənləşdiriləndə piştaxtlardan hər şey yoxa çıxdı və hər şey piştaxta altında baha qiymətə satılmağa başladı. Ona görə də dövlət qiymətin formalaşmasına birbaşa müdaxilə etməməlidir. Amma dövlət iqtisadiyyatda, o cümlədən iqtisadiyyatın bütün sahələrində ədalətli hakim rolunu oynamalı, rəqabət mühiti genişləndirilməlidir. Kiçik və orta sahibkarlığa gömrük və vergi yolu ilə dəstək olmalıdır. Yəni rəqabət və oyunçuların sayı artdıqca qiymət tənzimlənməsi baş verəcək”.

**Aynurə Pənahqızı**

# Yanvarın sonunadək gözləməliyik



**Musa Quliyev: “Məktəb və universitetlər açılacağı təqdirdə kütləvi yoluxma halları baş verərsə, bütün bunlar çox ciddi nəticələr doğuracaq”**

**Ölkəmizin təhsil cameəsi orta və ali məktəblərdə təhsilin bərpasını müzakirə edir. Son günlər isə Azərbaycanda koronavirusa yoluxma və ölüm sayında kəskin artımlar müşahidə edilir. ”Delta” ştammı sürətlə yayılır, azyaşlı uşaqlar belə virusa yoluxurlar.**

Qeyd edək ki, qarşıdakı aylarda payız mövsümü gəlir. Bu fəsildə isə koronavirus və digər viruslar daha da aktiv fazaya keçir, daha sürətlə yayılır və virusların öldürücülük qabiliyyəti daha da artır. Maraqlıdır, belə olan halda Azərbaycanda ənənəvi təhsilin bərpası məqsədəuyğundurmu?

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili Musa Quliyev ”Şərq”ə açıqlamasında bildirib ki, ölkəmizdə təhsilin ənənəvi formada bərpasına dair vəziyyəti Operativ Qərargah qiymətləndirəcək:** ”Lakin düşünürəm ki, yanvar ayına qədər orta məktəblərdə, hətta universitetlərdə təhsili bərpa etməyə tələsməyək. Mövcud situasiyanı izləməliyik. Artıq şagird və tələbələrimiz bir il yarımdır ki, onlayn formada təhsil alırlar. Hesab edirəm ki, bu da çox düzgün bir qərardır. Belə olduqda yoluxma sayı xeyli dərəcədə aşağı düşmüşdü. Nəzərə alsaq ki, geniş yayılan ”Delta” ştammına uşaqlar və yeniyetmələr də sürətlə yoluxurlar. Uşaqlar arasında isə vaksinasiya tətbiq olunmur, çünki peyvənd 18 yaşdan yuxarı şəxslərə vurulur. Ancaq vaksinasiya ”Delta” ştammından qorumur, yalnız xəstəliyi yüngül keçirməyə şərait yaradır. Məktəb və universitetlər açılacağı təqdirdə kütləvi yoluxma halları baş verərsə, bütün bunlar çox ciddi nəticələr doğuracaq. Ona görə də yanvara qədər tələsməməyin tərəfdarıyam, o zamana qədər onlayn təhsil davam etməlidir. Yanvardan sonrakı vəziyyəti dəyərləndirib, yeni qərar vermək olar. Bəlkə, ”Delta” ştammı bir-iki aya bitəcək. Ölkəmizdə vaksinasiya faizi də yüksək deyil. Hər iki dozanı vurduranlar heç 30 faiz olmayıb. Nəzərə alaq ki, payız mövsümündə virus və bakterioloji, yuxarı tənəffüs yolları xəstəlikləri koronavirusla bağlı durumu daha da çətinləşdirə bilər. Dərslər əyani olaraq başlayanda tələbələrdən kimsə yoluxarkən dərslərə ara verməlidir. Bu da həmin tələbələrin davamiyyətinə və verəcəkləri imtahana təsir edəcək. Ona görə də bütün məqamlar ölçülüb-biçilməlidir”.

**Millət vəkilinin sözlərinə görə, ölkəmizdə pandemiya yeni başlayan zaman cənab Prezident bütün dünyaya bəyan etdi ki, mənim üçün insanların sağlamlığı hər şeydən önəmlidir:** ”Ölkə başçısının irəli sürdüyü bu şüarı əlimizdə bayraq edərək insan sağlamlığını ön plana çəkməliyik”.

**Yeganə Bayramova**

**“Real potensialından ən az istifadə edilən iqtisadi rayonlardan biri, bəlkə də birincisi Şəki-Zaqatala iqtisadi rayonudur. Bu reallığı bu iqtisadi rayon daxilində olan inzibati rayonların (Qəbələ istisna olmaqla) vəziyyətinə baxanda görmək olur”.**



# Balakənin, Qaxın bəxtində pul var

## “Filizçay”da 10 milyardlıq gəlir ”yatır”

**Bu sözləri ”Şərq”ə açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, hazırda bu iqtisadi rayonun inkişaf etdirilməsi üçün əla zəmin yaranıb:** ”Dünən rəsmi məlumatda bildirilir ki, Balakəndə Avropanın ən böyük 2 polimetal yatağından biri olan ”Filizçay”da həyata keçirilən işlərdən təxminən 10 milyard manat gəlir əldə ediləcək. Yatağın mis, qurğuşun, sink və gümüş kimi ehtiyatları var. Düzdür, burda minlərlə insan işlə təmin ediləcək. Və bu iş yerləri bəzi mövsümi və rentabelsiz fəaliyyət göstərib sonradan bağlanan müəssisələrdə açılan iş yerləri kimi olmayacaq. Bu, ən azı 30 ilə yaxın davamlı fəaliyyət göstərəcək bir sahə olacaq. Bu, region üçün çox ciddi dividend deməkdir. Amma məsələ bununla bitməməlidir. ”Balakənli, qaxlı və digər region sakinləri işlədi, maaş aldı və bu yatağın faydası bununla bitdi” olmamalıdır. Yuxarıda qeyd etdiyim kimi, bu yatağın ehtiyatları çox böyükdür. Filiz ehtiyatları 120 milyon ton həcmində qiymətləndirilir. Yatağın istismarına təxminən 4-5 il sonra başlanılacağı gözlənilir. İstismar müddətinin isə 25-ildən artıq, hardasa 27-28 ilə yaxın davam edəcəyi ehtimal edilir. Bu 30 ilə yaxın bir müddət ərzində buradan 10 milyard manat gəlir götürülməsi planlaşdırılır. Bu kiçik məbləğ deyil”.

Eldəniz Əmirov: “Bu, o torpaqlardan çıxan təbii sərvətin o torpaqların insanları üçün ömürlük iş yerini təmin edə bilər”

**Ekspert əlavə edib ki, bu vəsaitlə bu regionda kiçik və orta sahibkarlığın inkişafına çox ciddi dəstək olmaq mümkündür:** ”Bu pulun hamısının yönəldilməsinə də ehtiyac yoxdur. Bunun 30-35 faizi həcmində vəsait hesabına spesifik dəstək proqramı hazırlana bilər. Proqram çərçivəsində kiçik və orta biznes təsərrüfat subyektlərinə sistemli şəkildə müxtəlif mexanizmlər qurularaq dəstək həyata keçirilə bilər. Bu, ucuz maliyyə vəsaitlərinə əlçatanlığın ciddi şəkildə təmin edilməsi deməkdir. Bu dəstəyin də üzərinə müəyyən güzəştləri gəlsək, bir müddət sonra geniş potensialı olan həmin regionda böyük nəticələr əldə etmiş olarıq, həm də çox böyük. Bu, o torpaqlardan çıxan təbii sərvətin o torpaqların insanları üçün ömürlük iş yerini, davamlı gəlirini və əbədi iqtisadi aktivliyini təmin edə bilər. Amma bir şərtlə ki, yerli icra hakimiyyətlərinin bu prosesə birbaşa və ya dolayı müdaxilə imkanları tam məhdudlaşdırılsın. Çünki əks halda bu, 3-4 milyard manat pulu köhnə qayığa qoyub, Somali sularına buraxmaq qədər riskli addımdır. Bunu mən demirəm, bunu zamanın təcrübəsi deyir”.

**Aynurə Pənahqızı**

# Vətənə 10 qızıl medal "gəlir"



## Ramin İbrahimov: “Bu qələbə 44 günlük Vətən müharibəsində əldə olunan qələbə ruhunun yüksəkliyinin göstəricisidir”

Bu gün Azərbaycan üzgüçüsü Roman Saley Tokio-2020 Yay Paralimpiya Oyunlarında ikinci qızıl medalını qazanıb. Bununla da Azərbaycan yığmasının qızıl medallarının sayı 10-a çatıb.

**Paralimpiya, cüdo üzrə Avropa və dünya çempionu, ”Şöhrət” ordenli, Əməkdar idman ustası Ramin İbrahimov ”Şərq”ə açıqlamasında bildirib ki, bu qələbə 44 günlük Vətən müharibəsində əldə olunan qələbə ruhunun yüksəkliyinin göstəricisidir.** O qeyd edib ki, bu il idmançıların psixoloji ruhunun yüksək olması qələbəyə əsas zəmin yaratdı: ”Biz bu yarışlara qələbə əzmi ilə getmişdik. Misal çəkə bilərəm ki, Dürsədəf Kərimova axırıncı Bakı Qran-pri yarışında yer tutmadı. O, İngiltərəyə gedərək, orada lisenziya xalını möhkəmləndirdi və olimpiadaya düşdü. İnanın ki, həmin yarışda idmançımız yer tuta bilməmişdi, sadəcə, lisenziya xalını qaldırmaqla kifayətlənmişdi. Ancaq olimpiadada idmançımız elə gözəl oyun göstərdi ki, bir anda rəqiblərini peşəkarcasına məğlub etdi. Bütün idmançılarımız bu ruhda güləşdi və gözəl qələbələrə nail oldular. Yaxşı ki, 2020-ci ildə olimpiada olmadı! Çünki 2021-ci ildə biz qalib ölkənin idmançıları kimi meydana çıxdıq və gözəl qələbələrə imza atdıq”.

**R.İbrahimov qeyd edib ki, bu qələbələr ilk növbədə idmançılarımızın psixoloji hazırlığından irəli gəlir:** ”Bilirsiniz ki, olimpiadada hamı güclüdür, hamı hazırlaşır. Heç kim deyə bilməz ki, bir dövlət idmançısını olimpiadaya hazırlamır. Hətta bir il qalmış idmançılar ev üzü görmürlər. Bu yarışda 163 ölkənin idmançıları iştirak edirdi. Əslində bizim qarşımızda dünyanın ən gücləri olsa da, möhtəşəm qələbələrə imza atmağı bacardıq. Biz artıq qalib ölkənin qalib idmançılarıyıq! Bütün idmançılarımız qələbələrini şəhidlərimizə həsr edir. Hazırda vətənə dönürük, yoldayıq. İnşallah, sabah doğma torpağımızın hava limanında olacağıq”.

**Aynurə Pənahqızı**

# Körpələrin günahı nə?

## Lalə Mehralı: “Hər dünyaya uşaq gətirən qadın ana deyil”



**Gəncədə dörd aylıq körpə küçəyə atılıb. Bu barədə hüquq-mühafizə orqanlarından məlumat verilib. Bildirilib ki, Gəncə şəhər A.Ziyatxanov küçəsində yerləşən 18 saylı məktəbin yanında çantanın içərisində körpə tapılıb.**

Azyaşlı qız 2 saylı uşaq xəstəxanasına yerləşdirilib. Vəziyyəti normaldır.

Qeyd edək ki, bir müddət əvvəl Sumqayıtda və Ucarda da körpələr küçədə tərk edilmişdi.

**Hadisəni ”Şərq”ə dəyərləndirən sosioloq Lalə Mehralı vurğulayıb ki, böyük ehtimalla körpə nikahdan kənar dünyaya gəlib:** ”Çünki bəzi qadınlar ailəsindən gizlin və yaxud da qeyri-rəsmi münasibətdə olduğu kişidən uşaq dünyaya gətirir. Çıxış yolunu isə körpəni küçəyə atmaqda görürlər. Ola bilsin ki, qadın hamiləliyi rəsmi nikah üçün vasitə hesab edib və körpəni dünyaya gətirib. Rəsmi nikaha nail ola bilməyəndə isə körpəni uşaq evinə vermək əvəzinə küçəyə atırlar. Nə üçün körpələr evinə getmirlər? Çünki kimliklərinin aşkar olunmasından qorxurlar”.

**L.Mehralı qeyd edib ki, ana ola bilməyən minlərlə qadın var ki, belə xəbərləri görəndə çox pis olur:** ”Məncə, küçədən tapılan körpələrin övladlığa verilməsi məsələsini də asanlaşdırmaq lazımdır. Çünki həmin körpələrin uşaq evində böyüməsindənsə, məsuliyyətli bir ailədə yaşaması daha yaxşıdır. Qanunlarımız yaxşıdır, ancaq işlənmə mexanizmi zəifdir. Bu da məmurların ləngliyindən və mexanizmin düzgün qurulmamasından irəli gəlir. Təbii ki, hər dünyaya uşaq gətirən qadın ana deyil. Nə qədər mübarizə aparsaq da, bu kimi hallar yenə olacaq. Çalışmalıyıq ki, belə qadınların sayı heç olmasa azalsın”.

**Yeganə Bayramova**

# Jurnalistlərin vaksinasiya prosesi davam edəcək



## Müşfiq Ələsgərli: “Növbəti prosesin sentyabrın 5-8-i aralığında keçirilməsi nəzərdə tutulur”

**“Mətbuat Şurasında jurnalistlərin vaksinasiya prosesi cari ilin aprel ayından başlayıb və bu gün də davam edir”.**

**Bu sözləri ”Şərq”ə açıqlamasında Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli deyib.** Onun sözlərinə görə, bugünədək Mətbuat Şurasında 70-dən artıq redaksiyadan, təqribən min nəfərdən çox jurnalistin vaksinasiya prosesi həyata keçirilib: ”Jurnalistlər daima ictimaiyyət və kütlə arasında işləyir. Bilirsiniz ki, daim ictimaiyyət arasında olmaq koronavirusa yoluxma riskini artırır. Bu baxımdan Mətbuat Şurası bunu nəzərə alaraq jurnalistlərin növbədənkənar vaksinasiyanı həyata keçirtmək üçün bu təşəbbüsü qaldırdı. Qeyd edim ki, bu proses aprel ayından başlayıb və bugünədək də davam edir. Nəzərinizə çatdırım ki, Mətbuat Şurasında sonuncu dəfə vaksinasiya prosesi cari ilin avqustun 5-də həyata keçirilib, yəni biz də vaksinasiya prosesi dayanmayıb. Sadəcə olaraq məsələ belədir ki, biz qruplar şəklində siyahı tuturuq və ayda bir dəfə TƏBİB işçiləri jurnalistlərin vaksinasiyasını həyata keçirir. Mətbuat Şurasında növbəti vaksinasiya prosesinin sentyabrın 5-8-i aralığında keçirilməsi nəzərdə tutulur. Sadəcə burada bir məsələ var. İstərdim ki, onu jurnalistlərimiz nəzərə alsınlar. Biz əvvəldən elan vermişdik ki, vaksin vurdurmaq istəyən şəxslər öncədən Mətbuat Şurasının katibliyinə xəbər versinlər. Əvəz Rüstəmovun nömrəsini də orda qeyd etmişik. Jurnalistlərimizdən xahişimiz budur ki, onlar vatsap və ya email vasitəsilə ad və soyadlarını göndərsinlər ki, biz onları qabaqcadan qeydə alaq. Vaksin olunacaq günü və saatı əvvəlcədən onlara xəbər edək. Biz TƏBİB-in işini pozmaq istəmirik. Çünki TƏBİB briqadasını göndərir və onlar səhərdən axşamacan vaksinasiya edirlər. Ona görə də biz qabaqcadan siyahını onlara təqdim etməliyik ki, onlar nə zaman və nə qədər vaksinlə gələcəyini öncədən bilsinlər. Kimki Mətbuat Şurasına müraciət etmir, biz onları çağıra bilmirik. Ona görə də bu yalnız jurnalistlərin özündən asılıdır. Fürsətdən istifadə edərək, Mətbuat Şurasının bu çağırışına operativ şəkildə cavab verdiyi üçün TƏBİB-ə təşəkkürümüzü bildiririk”.

**Aynurə Pənahqızı**

**Enerji içkiləri bazarında haqsız rəqabət halları ilə əlaqədar qərarlar qəbul edilib.**



# Enerji içkilərinin hazırlanmasında uyğunsuzluqlar var

## Eyyub Hüseynov: “Məntiq haradadır ki, uşaqlar üçün zərərli olan şey böyüklər üçün xeyirli olsun?”

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən verilən məlumata görə, işlərə baxılan zaman ”AVRORA” MMC-nin ”BİZON energy”, ”BERG ENERGY” MMC-nin eyni adlı məhsulu, ”A+CO” ASC-nin ”FULL energy”, ”NPG Azərbaycan” MMC-nin ”PIT BULL” adlı alkoqolsuz içkilərin markalanmasında həmin məhsulların enerji içkisi olması təəssüratlarının yaradılması, xassələri və keyfiyyəti barədə düzgün olmayan məlumatları təqdim etməklə haqsız rəqabətə yol verildiyi müəyyən olunub.

Bununla yanaşı, ”PIT BULL” alkoqolsuz içkisinin qablaşdırılmasında ”Veysəloğlu” MMC-nin adından qanunsuz istifadə halları aşkarlanıb. Qərarlara əsasən, ”BERG ENERGY” MMC, ”AVRORA” MMC, ”A+CO” ASC və ”NPG Azərbaycan” MMC-lərə qarşı müvafiq məsuliyyət tədbirləri barədə qərarlar qəbul edilərək pozuntuların aradan qaldırılması barədə göstərişlər verilib.

**Mövcud durumu ”Şərq”ə dəyərləndirən ”Azad İstehlakçılar” İctimai Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti adlı qurum istehlakçıların aldadıldığını əsas gətirərək belə qərar verib:** ”Əslində tərəfdarıyam ki, enerji içkilərinin içinə su doldursunlar, o zaman istehlakçılar zərər çəkməzlər. Çünki enerji içkiləri arzuolunan deyil. Hökumətin yerinə olsaydım, qeyd edilən şirkətlərə başqa cür cəza verərdim. Enerji içkilərini istehsal edən xarici şirkətlər məhsulun üzərində yazırlar ki, bu, uşaqlar, hamilələr və zəif insanlar üçün zərərlidir. Məntiq haradadır ki, uşaqlar üçün zərərli olan şey böyüklər üçün xeyirli olsun? Bütün hallarda yerli enerji içkiləri dövlətin nəzarəti altındadır. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (QTA) bu sahədə xeyli iş aparıb, onların tərkibində öyrəşdirici maddələrin azaldılmasına nail olub. Ona görə zərərli vərdişlə məşğul olan insanlara tövsiyə edirəm ki, öz vərdişlərindən əl çəkə bilmirlərsə, yerli enerji içkilərinə üstünlük versinlər. Çünki onların tərkibi nəzarət altındadır. Xaricdən gətirilən enerji içkiləri isə daha təhlükəlidir və insanda asılılıq yaradır”.

**Yeganə Bayramova**

# "Şuşanı alan oğullar"

## Barat Vüsal səfərinin təəssüratlarını "Şərq"lə bölüşüb



**Azərbaycan Yazıçılar Birliyinin Qazax bölməsinin sədri, Əməkdar incəsənət xadimi Barat Vüsal da Vaqif Poeziya Günlərində iştirak etmək üçün Şuşaya yollanıb.**

**O, "Şərq"lə həmsöhbət olaraq təəssüratlarını bölüşüb və bunları söyləyib:**

"Hazırda Şuşadan qayıdırıq. Təxminən üç gün əziz Şuşamızda, qəhrəman şəhərimizdə, mədəniyyətimizin paytaxtında idik. Möhtəşəm bir tədbirin şahidi olduq. Cənab İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Molla Pənah Vaqifin məqbərəsinin açılış mərasimində iştirak etdik, zövq aldıq, qürur duyduq. Birinci gün cənab Prezident çıxış etdi. Sonrakı gün də poeziya bayramının davamı oldu. Başqaları kimi mən də ürəyidolu getdim. İstəyirdim ki, qəhrəman oğullarımıza həsr olunan şeiri səsləndirim. Şeirimin adı "Şuşanı alan oğullar"dır. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə sağlıq diləyirəm. Arzu edirəm ki, ərazi bütövlüyümüz əbədi olsun, Vaqif Poeziya Günləri hər il keçirilsin, biz də iştirak edək, şeirlər dinləyək, qürur duyaq. "Şuşanı alan oğullar" şeirindən bir bənd söyləmək istərdim:

**"Atillatək qırmancdılar,**
**Qayalara dırmaşdılar.**
**Sıldırımdan yol açdılar,**
**Qardaşım, balam oğullar,**
**Şuşanı alan oğullar!**

Şuşanı işğaldan azad edən oğullarımız burada hər daşa, hər qayaya sanki adlarını qanları ilə həkk ediblər. Tariximizlə, igidlərimizlə bir daha fəxr etdik, anladıq ki, qələbə çalmış torpağın, yurdun övladlarıyıq. Yazdığımız hər əsər də qələbəyə xidmət etməli, şəhidlərimizin ruhunu sevindirməlidir. Hesab edirəm ki, bu poeziya günləri həmin məqsədə xidmət edəcəkdir. Şuşada böyük coşqu, ruh yüksəkliyi var idi. Biz Şuşaya Prezidentimizin əsasını qoyduğu Zəfər yolu ilə getdik, ölkə başçımızın diqqət və qayğısı nəticəsində bu yol salınıb. Şanlı qələbənin oyatdığı hissləri Zəfər yolundan keçəndə duyduq. Biz Şuşaya sanki buludların qoynunda, qanadında yollandıq. Həmişə Vətənimiz ucalıqlarda, Şuşamız yerində olsun".

**Samirə**

# Yazıçılar seçimini Şuşada edəcəklər

**Emil Rasimoğlu:**
*"Anar sədr postunu təhvil vermək istəmir"*

**İntiqam Yaşar:**
*"Şuşanın ab-havasına uyğun qurultay baş tutacaq"*





**Azərbaycan Yazıçılar Birliyinin (AYB) növbəti qurultayı Şuşada keçiriləcək. Vaqif Poeziya Günlərində iştirak edən AYB sədri Anar Prezident İlham Əliyevlə söhbətdə bu istəklərini dilə gətirib.**

Prezident təklifi razılıqla qarşılayıb. Yazıçı Anar qurultayda xaricdən də qonaqların iştirak edəcəyini söyləyib. O, sonda ölkə başçısına minnətdarlığını bildirib.

**"Şərq"lə həmsöhbət olan şair Emil Rasimoğlu sözügedən təklifi hələ aylar öncə Yazıçılar Birliyinin Gənclər Şurasının üzvü, Prezident təqaüdçüsü Tural Turanın irəli sürdüyünü deyib:**

"O dönəmdən bu məsələyə müsbət yanaşıb, həmkarımın təklifini dəstəklədim. Niyə də olmasın? Amma dürüst olsun. Qurultaydan gözləntilərimə gəlincə... Anarın mətbuata son çıxışları, eləcə də Azərbaycan Yazıçılar Birliyindəki uğursuz dəyişikliklər göstərir ki, o, hazırkı postu təhvil vermək istəmir. Hətta özünü əvəzolunmaz kimi göstərir. Ancaq unutmamalıyıq ki, bu pərdəarxası istək sadəcə Anarın diləyidir, qurultayın nəticəsi deyil. Əgər qurultay dürüst, demokratik keçirilsə, nümayəndələri ədaləti öz şəxsi maraqlarına qurban verməsə, AYB-nin Anarlı günləri sona çatacaq. Hesab edirəm ki, Anar bu qurultaya sədrlik postunu mütləq mənada təhvil verməlidir".

**Şuşada səfərdə olan Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı İntiqam Yaşar mövzu haqda fikirlərini bizimlə bölüşüb:**

"Bu təkliflə bağlı Cənab Prezidentlə Anar müəllimin söhbətləri oldu və razılıq alındı. İnşallah yüksək səviyyədə, Şuşanın ab-havasına uyğun qurultay baş tutacaq. Səsvermənin nəticəsinə əsasən layiq olan kadr rəhbərliyə seçiləcək".

**Samirə**

# "Ağzımızın əyrisi nə vaxt düzələcək?"



Flora Kərimova:
"Bir qrup kütləni heç nə ilə razı salmaq mümkün deyil"

**"Təəssüf edirəm ki, bir qrup kütləni heç nə ilə razı salmaq mümkün deyil. Birinci növbədə bütün Olimpiya iştirakçılarımıza təbriklərimi çatdırıram. Duruşları, yürüşləri ilə Azərbaycan adını andıran, hər kəsə vətəndaş kimi təzim edirəm".**

*"Şərq" xəbər verir ki, bu sözləri Xalq artisti Flora Kərimova feysbuk profilində yazıb. O, medal alan idmançılarımızı ayaqüstə alqışladığını söyləyib:*

"Həmişə demişəm ki, igid odur atdan düşə atlana. Oyunçularımız nə olsun ki, qızıl medal qazanmadılar? Dünya ikincisi və ya üçüncüsü olub, ya da heç bir qələbəsi yoxdur. Əsas Azərbaycan bayrağı altında millətini təmsil edib. Dərk edə bilirsiniz bu nə deməkdir? Rəfael Ağayevin saysız-hesabsız medalı var. Bundan sonra bir qələbəsi olmasa belə adı dünya idman tarixinə qızıl hərflərlə yazılıb. Ağzınızın əyrisi nə vaxt düzələcək? Nə vaxt özünüz şəxsiyyət olub, adınızı böyük hərflərlə yazdıracaqsınız? Söz demək xatirinə "Söz" deməkdirsə, sosial şəbəkələrdə rəy yazmazdan öncə düşünün. Vətən bayrağını yüksəltməyə layiq şəxsiyyət olanda millətin sərvəti sayılan şəxslərə söz deməyə mənəvi haqqınız çatacaq".

**Samirə**

# İnstaqramda pul da qazanır

Həyat yoldaşı Sevdanın paylaşımlarına qarışmır



**"Ailə qurduqdan sonra həyatım dəyişdi. Amma yoldaşım paylaşımlara müdaxilə etmir. Hər zaman paylaşımıma diqqət edirəm. O da məni dəstəkləyir".**

*Bu sözləri müğənni Sevda Yahyayeva "Səhər mərkəzi" verilişində deyib. Sənətçi sosial şəbəkədən danışıb. Sevda bildirib ki, İnstaqram paylaşımlarından pul da qazanır:*

"Həyat yoldaşım da sosial şəbək istifadəçisidir. Facebook-u daha çox sevir. Bilir ki, İnstaqram işimə aid olan şəbəkədir. Ona görə də dəstəkləyir. Bu yaxınlarda rəsmi Facebook səhifəm oğurlandı. Rəsmi təsdiqlənmişdi və 314 min izləyicim var idi. Bunla məşğul olurlar, qaytarmağa söz veriblər.

Sosial şəbəkə sənin simandır. Burada nə qədər izləyici var. Ona görə də hər zaman nə yayımlayacağıma diqqət etmişəm".

*Qeyd edək ki, Sevdanın İnstaqramda 1,6 milyon izləyicisi var.*

# "Nar" Çağrı Mərkəzinə daxil olmuş sorğuların 93 faizi ilk zəngdən öz həllini tapıb

**"Nar"ın 777 Çağrı Mərkəzinə 2021-ci ilin ilk 6 ayı ərzində 1 milyondan artıq sorğu daxil olub və onlara ortalama 17 saniyə ərzində cavab verilib. Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 89%-i göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib. Ümumilikdə, daxil olmuş sorğuların 93%-i ilk zəngdən öz həllini tapıb.**

Bundan başqa, "Nar" rəsmi sosial şəbəkələri - "Facebook", "İnstagram" və "Twitter" səhifələri vasitəsilə də abunəçilərinə xidmət edib və 89 mindən artıq sorğuya cavab verib. Sosial şəbəkələr vasitəsilə daxil olmuş müraciətlərin 50%-i 1 dəqiqə, 90%-i isə 10 dəqiqə ərzində cavablandırılıb. "Nar"-ın bütün sosial şəbəkələrindən daxil olan sorğulara ortalama 11 dəqiqə ərzində cavab verilib.

Mobil operator, eyni zamanda abunəçilərin gündəlik həyatlarına rahatlıq və çeviklik gətirmək məqsədilə daim yenilənən "Nar+" tətbiqindəki onlayn çat vasitəsilə də müştərilərinə yüksək səviyyədə xidmət göstərməkdədir. Belə ki, 6 ay ərzində daxil olmuş 96 mindən artıq sorğuya operativ cavab verilib.

# Xatirə Rusiyada Rəqsanənin qonağı olub

"Çox sevindim, məmnun oldum ki, onun belə ailəsi və istiqanlı balaları var"



**Rusiyaya yollanan müğənni Xatirə İslam uzun müddətdir orada yaşayan həmkarı Rəqsanə İsmayılovanın evində qonaq olub.**

**"Şərq" xəbər verir ki, o, R.İsmayılova ilə fotosunu paylaşaraq bunları yazıb:**

"Rəqsanənin ailəsi möhtəşəmdir. Onu dünən yenidən kəşf etdim. Baxmayaraq ki, biz 20 il eyni binada yaşamışıq. Çox səmimi, qonaqpərvərdir, içdən uşaq kimi sevinirdi. Bəlkə də, qürbətdə yaşayan hər kəs belədir. Vətəndən kimsə gələndə kövrək olurlar. Bizim münasibətimiz uzun illərə dayanır, anasını öz anam kimi sevmişəm. Bilmirəm, nəyi deyim, nədən danışım. Mən çox sevindim, məmnun oldum ki, onun belə ailəsi və istiqanlı balaları var. O böyük ailədə hər kəs əlindən gələni etdi ki, bizim ürəyimizcə olsun. Fazil bəylə xoşbəxt olun, evinizə oğlunuzun toyuna gələk. Özümə dedim ki, Xatirə, Bakıya çatan kimi get, Rəqsanənin anasını öp, bağrına bas. Balaları çox uzaqdadır, o ananı 20 il əvvələ qaytar".

**Samirə**

# Dünyanın ən dərin, ən gözəl metroları...

## Bəziləri UNESCO-nun mədəni irs siyahısına belə salınıb





(Əvvəli səh.16)

**Rusiya. Moskva.**
Rusiyasnın paytaxtı Moskvadakı metro 12 milyonluq əhaliyə xidmət göstərməsiylə məşhurdur. Metro stansiyalarının yüksək memarlıq nümunələri ilə zəngin olması turistləri heyran edir və bu şəhərə gələn metronu görmədən tərk etmir.

**İngiltərə. London**
London metrosu 11 xətt və 270 stansiyaya malikdir. London metrosu 1863-cü ildə istifadəyə verilib.

**Türkiyə, İstanbul.**
Dünyada iki qitə üzərində inşa edilmiş yeganə şəhər olan İstanbul metrosu Sultan Əbdüləziz dönəmində - 1869-cu ildə inşa edilməyə başlayıb, bununla da London metrosundan sonra dünyanın 2-ci ən qədim metrosu hesab edilir.




**Ukrayna. Kiyev**
Kiyev metrosu isə dünyanın ən dərin metrosudur. 1960-cı ildə yerdən 105.5 metr dərinlikdə inşa edilməyə başlayıb. İlk stansiyası ”Arsenalna”dır. Stansiyaya enib-qalxmaq uzun bir vaxt aparır.

**Yaponiya. Tokio.**
Tokio metrosunun 179 stansiyası var. Və dünyanın ən böyük sıxlıq yaşanan metrosudur. 2017-ci ildə 3.56 milyard insan 195 kilometr uzunluğundakı bu metrodan istifadə edib.

**İsveç. Stokholm.**
Stokholm metrosu eynən Moskva metrosu kimi xüsusi memarlıq üslubuna görə dünyadakı metro stansiyalarından fərqlənir. Stansiyaların fövqəladə gözəlliyə malik olması bu şəhərə gələnləri heyrətləndirməkdədir.

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon Şöbəsinin 18.08.2021-ci il tarixli, 11102-220084/18-15-26 saylı sifarişi ilə, ”Great Wali Volex 030” markalı, 2017-ci il buraxılışlı, 99-EV-95Q dövlət qeydiyyat nişanlı, qara rəngli avtomobili dair 31 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil ilkin satış qiyməti olan 8.000 (səkkiz min) manatdan 10% aşağı, yəni 7.200 (yeddi min iki yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 10 sentyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 720 (yeddi yüz iyirmi) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq ”Qeyd”ə bax).

--------------------------------------------

Neftçala rayon İcra Şöbəsinin 30.06.2021-ci il tarixli, 059 saylı sifarişi ilə, Neftçala şəhəri, H.Əliyev pr., ev 27, mənzil 26-da yerləşən 4 otaqlı mənzilə dair 31 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin mənzil ilkin satış qiyməti olan 35.000 (otuz beş min) manatdan 10% aşağı, yəni 31.500 (otuz bir min beş yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 10 sentyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 1.575 (bir min beş yüz yetmiş beş) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq ”Qeyd”ə bax).

--------------------------------------------

Quba rayon İcra Şöbəsinin 18.08.2021-ci il tarixli, 35040/21-03 saylı sifarişi ilə, Quba rayonu, Qəçrəş kəndində yerləşən 0.065 ha torpaq sahəsinə dair 31 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi ilkin satış qiyməti olan 26.000 (iyirmi altı min) manatdan 10% aşağı, yəni 23.400 (iyirmi üç min dörd yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 10 sentyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 1170 (bir min yüz yetmiş) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq ”Qeyd”ə bax).

--------------------------------------------

QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır.

1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*
*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*
*rəsmi internet saytı: e-herrac.com*

## TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 28.07.2021-ci il tarixli, 10477-89600/21-15-26 saylı sifarişi ilə, Bakı şəhəri, Nərimanov rayonu, Ak. H.Əliyev pr., 945 məhəllə ünvanında 18 mərtəbəli yaşayış binasının ”B” blokunun, 3-cü mərtəbəsində yerləşən, ümumi sahəsi 140.32 kv. metr olan 3 otaqlı, 4 saylı mənzilə dair 31 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin mənzil satış qiyməti olan, 121.236 (bir yüz iyirmi bir min iki yüz otuz altı) manatdan 30% aşağı, yəni 84.865,2 (səksən dörd min səkkiz yüz altmış beş manat iyirmi qəpik) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 10 sentyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 4.243,26 (dörd min iki yüz qırx üç manat iyirmi altı qəpik) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq ”Qeyd”ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*
*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*
*rəsmi internet saytı: e-herrac.com*

**Elan**

Ağayev Cavanşir Çərkəz oğluna məxsus sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd
Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeyməm Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru
Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073
Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1629



# Qardaşlar eyni taleyi yaşadılar

## Hər ikisi yük maşını qəzasında dünyalarını dəyişiblər



**Adları kimi, taleləri də eyni oldu: Hər kəs göz yaşına boğuldu**

Konyada 18 yaşındakı Fatih Ocak və böyük qardaşı Hacı Naspi Ocak yük maşını qəzasında dünyalarını dəyişiblər. Bu barədə "Şərq" "Posta"ya istinadən xəbər verir. Bildirilir ki, Fatih Ocak 18 yaşındaykən avtobus altında qalan əmisinin adını daşıyırdı. Hacı Naspi Ocaka isə 24 yaşındaykən eyni şəkildə həlak olan babasının adı verilmişdi.

Nənə Fatma Ocak qəza qurbanlarının dəfn mərasimində "Fatihim, axırın adını verdiyimiz əmin kimimi olacaqdı? Bu, necə bir təsadüfdür?"- deyərək göz yaşları tökdü.

**Kənan**

# Dünyada "qatil arı"sı da peyda olub

## Amerika eşşək arıları ilə mübarizəyə başlayıb





**ABŞ-da qatil eşşək arıları ilə mübarizə davam edir. Səlahiyyətlilər Vaşinqton əyalətində aşkarlanan bir yuvanın məhv edildiyini açıqlayıblar.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, boyu 5 santimetrə çata bilən bu heyvanlar bal arılarının yuvalarına hücum etdikləri və sancmaları insanları ölümcül hala gətirdiyi üçün çox təhlükəlidir.

Sözügedən yuva bir əyalət sakininin 11 avqustda canlı bir böcək gördüyünü bildirməsindən sonra tapılıb. Daha sonra səlahiyyətlilər 11 avqustdan 17 avqusta qədər üç ədəd qatil eşşək arısına məxsus yuvanı izləmə cihazları ilə müşahidə etdikdən sonra aşkar ediblər. Yuvanın yerləşdiyi qızılağac ağacının bir hissəsi də kəsilərək əlavə analiz üçün Bellinqhemdəki Vaşinqton Dövlət Universitetindəki laboratoriyaya göndərilib.

Nəhəng eşşək arısı balalarını qidalandırmaq üçün böyük arıların başlarını qıraraq bal arılarının pətəklərinə soxulurmuş.

**Yeganə**

# Vəhşilik hər kəsi şoka salıb

## 7 uşaq anasını su ilə dolu qabda boğaraq öldürdü



**Şanlıurfada (Türkiyə) qan donduran cinayət vəhşiliyi və qəddarlığı ilə hər kəsi şoka salıb.**

Milli.Az haberturk-ə istinadən xəbər verir ki, 46 yaşlı Əhməd Tokay evdə mübahisə etdiyi 7 uşaq anası olan həyat yoldaşı 40 yaşlı Hediyye Tokayı əvvəlcə əllərini bağlayaraq sonra başını su ilə doldurulmuş plastik qaba salaraq boğub. Saxlanılan və sorğu zamanı həyat yoldaşı ilə 2 ildir tez -tez dalaşdıqlarını söyləyən Əhmət Tokay istintaqda dindirildikdən sonra məhkəmə tərəfindən həbs edilib. Ən dəhşətlisi odur ki, Əhməd Tokay həyat yoldaşını öldürdükdən sonra polisə özü zəng edib və qətli etiraf edib.



# Dünyanın ən dərin, ən gözəl metroları...

## "Bəziləri UNESCO-nun mədəni irs siyahısına belə salınıb"





**Metro müasir dünyanın ən sürətli nəqliyyat vasitəsi titulunu qorumaqdadı. Dünyanın müxtəlif şəhərlərində ən müxtəlif dərinliyə və gözəlliyə sahib metro dayanacaqları var. Bəziləri UNESCO-nun mədəni irs siyahısına belə salınıb.**

ABŞ, Nyu-York

Hollivud filmlərində tez-tez ekrada gələn Nyu-York metrosu dünyada ən çox stansiyaya malik metrodur. Nyu-York metrosunun tam 424 stansiyası var.

Finlandiya, Helsinki

Şimali Avropanın ən sakit ölkəsi Finlandiyanın paytaxtı Helsinki də metro məsələsində "ən"lərə sahibdir. 1989-cu ildə açılıb. Dünyanın ən şimalında olan metro kimi qeydə alınıb.

Argentina. Buenos-Ayres

Argentinanın paytaxtı Buenos-Ayresdəki metro dünyanın ən cənubundakı metrodur. 1986-cı ildə açılıb.

**Məlahət**

*(Davamı səh.15)*



# Əfqanıstanda dəhşət

## Helikopterdən asılaraq edam edildi

**Əfqanıstanda idarəni ələ alan "Taliban"dan daha qorxunc əməllər gəlməkdə davam edir.**

Unikal.org bildirir ki, "Taliban" onlara tabe olmayan əfqanları edam edərək, digər insanlara göstərirlər. Belə dəhşətli görüntülərdən biri də Kabil səmalarında qeydə alınıb. Naməlum şəxs helikopterlə edam edilib. İplə havada helikopterdən asılan şəxsin cəsədi Əfqanıstan xalqının üzərindən keçirilib. Həmin anlar kameralara anbaan əks olunub.

Sosial mediada paylaşılan görüntülər denya mediasında qınaq obyektinə çevrilib.

# Cütlük hələ ki münasibətlərini gizli saxlayır

## Serenay keçmiş sevgilisinin dostu ilə münasibətə başladı



**Aktrisa Serenay Sarıkaya yeni eşqə yelkən açıb. Axşam.az xəbər verir ki, aktrisanın Umut Evirgenlə eşq yaşadığı iddia olunub. Cütlük hələ ki münasibətlərini gizli saxlayır.**

Qeyd edək ki, Umut bundan əvvəl məşhur aktrisa Tuba Büyüküstün və Melisa Şenolsun ilə yaşadığı eşq macəraları ilə gündəmə gəlib. Digər diqqət çəkən məqam isə Umutun Serenayın keçmiş sevgilisi Çağatay Ulusoyun yaxın dostu olmasıdır.